


**"Xocalı soyqırımı xalqımızın yaddaşından heç zaman silinməyəcək"**

14

# Səs

№ 031 (6472) 18 fevral 2022-ci il. Qiymәti 60 qәpik

# "Biz heç vaxt imkan verə bilmərik ki, ərazi bütövlüyümüzə təhdid yaradılsın"



2

# Ermənistanda anti-türk təbliğatı: Sifarişçi kimdir?



8



## Paşinyanın komandası "günah keçisi" axtarışında

4

## Artsrun xəyalları hələ də Hadrutda qalıb

6

*Köhnə şakəri istefada olan erməni polkovnikinin sərsəm beynini tərk etməyibmiş...*






16

## COVID testlərinin nəticələri niyə gecikir?

# Messi: "Ən güclü komanda həmişə qalib gəlmir"

16




Fransanın PSJ klubunun argentinalı hücumçusu Lionel Messi komandasının Çempionlar Liqasının qalibi olmaq şanslarından...



## Qidaların keyfiyyəti insanları qane edir

7

Qida və ya qida məhsulları - orqanizmin xaricdən qəbul etdiyi üzvi və qeyri-üzvi maddələr yığımıdır. Qidalar çox...



## Qərənfil: Mənə bəraət verin!

10

Bir gündə qərənfillə bağlı iki bir-birinə bənzər hadisə ilə qarşılaşdım. Küçədə məndən öndə gedən iki nəfərdən biri...

# “Biz heç vaxt imkan verə bilmərik ki, ərazi bütövlüyümüzə təhdid yaradılsın”



**Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması ilə başa çatan İkinci Qarabağ müharibəsi müstəqillik və dövlətçilik tariximizin olduqca mühüm səhifələrindən biridir. 44 günlük müharibənin nəticəsində İlham Əliyevin Ali Baş Komandanlığı ilə ordumuz 30 ildən artıq idi ki, davam edən erməni işğalına birdəfəlik son qoydu, respublikamızın qanuni hüquqlarını bərpa etdi. Ermənistana həm də elə bir maddi və mənəvi ziyan vuruldu ki, indi bu ölkə tarixinin ən ağır və rüsvayçı günlərini yaşayır.**

TƏHLİL

Bu gün Ermənistan ordusu yoxdur. Əgər Ermənistan yenidən bizim üçün təhlükə mənbəyi olmağa cəhd edərsə, onların axırı İkinci Qarabağ müharibəsindəki kimi olacaqdır. ”Biz heç vaxt imkan verə bilmərik ki, xalqımıza, dövlətimizə, ərazi bütövlüyümüzə hər hansı bir təhdid yaradılsın. Ölkə hüdudlarından kənarda olsa da, əgər bu təhdidi biz görsək, heç kim bizi dayandıra bilməz. Necə ki, 44 gün ərzində nə qədər bizi dayandırmağa çalışdılar, nə qədər bizi hədələdilər, təzyiq etdilər, təhdid etdilər. Heç kim bizi dayandıra bilmədi”,-deyən dövlət başçısı yerli telekanallara müsahibəsində bu ilin əvvəlində Ermənistanın oxşar revanşist addımlarının şahidi olduq.

## ”AZƏRBAYCANIN SUVERENLİYİ, ƏRAZİ BÜTÖVLÜYÜ TAM TƏMİN EDİLMƏLİDİR”

Bəli, hər bir ölkənin ərazi bütövlüyü toxunulmazdır. Elə Azərbaycan Prezidenti İlham Əliyev də yüksək tribunalarda, müsahibələrində, çıxışlarında bildirib ki, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin edilməlidir.Prezident İlham Əliyev yanvarın 30-da ”Rossiya 24” telekanalında TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanın Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyinə və Azərbaycanın dövlət başçısının 60 illik yubileyinə həsr olunmuş ”Hakimiyyət formulu” verilişində deyib ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Bu, bizim suveren hüququmuzdur: ”Avropa Şurasının, Avropa Parlamentinin qətnamələri, ATƏT-in qərarları, İslam Əməkdaşlıq Təşkilatının, digər təşkilatların qətnamələri var. Bu sənədlərin hamısında tələb eynidir - Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Bu, bizim suveren hüququmuzdur”.

## ”ERMƏNİSTAN ƏFSUSLAR OLSUN Kİ, İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN AXIRA QƏDƏR DƏRS ÇIXARMAYIB”

Prezident İlham Əliyev müsahibəsi zamanı bir daha mesaj verərək, qeyd etdi ki, Ermənistan və onun havadarları bilsinlər ki, onlar tərəfindən törədilən təxribatların qarşısı qətiyyətlə alınacaq və bizim qarşımızı heç bir qüvvə kəsə bilməz və bütövlükdə erməni cəmiyyəti müharibədəki məğlubiyyətindən hələ özünə gələ bilməyib: ”Biz görürük ki, birincisi, dediyim kimi, müharibədən sonrakı dövr ərzində hərbi təxribatlar və bir neçə dəfə belə cəhd edilmişdir - həm noyabr ayında, ondan əvvəl, dünən və istisna deyil ki, bundan sonra da belə cəhdlər ediləcək. Təbii ki, Ermənistan rəhbərliyi və bütövlükdə cəmiyyəti müharibədəki məğlubiyyətindən hələ özünə gələ bilməyib. Onlara elə bir ciddi psixoloji zərbə vurulub, psixoloji cəhətdən elə zədələniblər ki, onların indi bütün ideoloji əsasları darmadağın edilib. Yəni, onların uydurduqları və özləri inandıqları bütün miflər dağıdılıb. Onu biz 44 gün ərzində göstərmişik. Ona görə belə meyillər Ermənistan ictimaiyyətində var və istənilən hakimiyyət ictimai rəylə hesablaşmalıdır. Ona görə belə meyillər davam edəcək. İkincisi, onu da biz unutmamalıyıq ki, indiki hakimiyyət əgər bu gün özünü daha konstruktiv aparırsa, faktiki olaraq müharibədən əvvəlki dövrdə müharibənin qaçılmaz olmasını şərtləndirdi. Axı ”Qarabağ Ermənistandır və nöqtə” deyən indiki hakimiyyətin təmsilçisidir, ”Yeni torpaqlar uğrunda yeni müharibə” ilə bizi hədələyən indiki hakimiyyətin təmsilçisidir. Cıdır düzündə oynayan, Azərbaycan xalqının heysiyyətinə toxunan indiki hakimiyyətin təmsilçisidir. Yəni, indi biz indiki hakimiyyətin davranışına baxmamalıyıq, özümüzü aldatmamalıyıq. Məhz onlar Azərbaycan ərazilərini daim işğal altında saxlamaq fikrində idilər, məhz indiki hakimiyyət dırnaqarası qondarma ”Dağlıq Qarabağ respublikası”nın parlamentini Şuşaya köçürmək istəyirdi və hətta orada binanın daş işləri də artıq tamamlanmışdı. Biz onu yerlə bir etdik. İndiki hakimiyyət nümayəndələri deyirdi ki, biz dırnaqarası ”Dağlıq Qarabağ respublikası” ilə danışıqlar aparmalıyıq və dırnaqarası ”Dağlıq Qarabağ respublikası” danışıqlar masasında olmalıdır. Yəni Koçaryan-Sarkisyan yox, məhz indiki hakimiyyət. Ona görə yenə də deyirəm, biz heç vaxt indiki hakimiyyətin xoş sözlərinə aldanmamalıyıq. Heç vaxt unutmamalıyıq ki, biz hansı qonşu ilə qonşuluqda yaşayırıq. Sərhəddə törədilmiş təxribatlar da bundan qaynaqlanır”.

## ”ÖLKƏMİZİN ƏRAZİ BÜTÖVLÜYÜ DANIŞIQLAR PREDMETİ DEYİL”

Dövlət başçısı dəfələrlə çıxışlarında bildirib ki, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin edilməlidir: ”Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin edilməlidir. İşğal edilmiş bütün torpaqlar istisnasız azad edilməlidir. Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara, o cümlədən Şuşaya qayıtmalıdır. Budur mənim siyasətim!...Ona görə, ölkəmizin ərazi bütövlüyü danışıqlar predmeti deyil, olmayıb, olmamalıdır və olmayacaq. Biz öz doğma torpaqlarımıza qayıtmalıyıq və qayıdacağıq.”

Prezidentin açıqlamalarında onu da vurğulayıb ki, bölgədə baş verən proseslər heç bir halda bizim mövqeyimizi dəyişə bilməz: ”Bunların imkanları artıb, yaxud da haradansa dəstək ala bilərlər. Amma unutmamalıdırlar ki, İkinci Qarabağ müharibəsindəki kimi, kimin onlara yardım edəcəyindən asılı olmayaraq, biz istədiyimizə nail olacağıq”. Həmçinin, dövlət başçısı iki ölkənin bir-birinin ərazi bütövlüyünü tanımaq şərtilə sülh sazişi imzalaması ilə bağlı Paşinyan hakimiyyətinə konkret vaxt qoyub: 6 ay. Əks təqdirdə, Azərbaycan da Ermənistanın ərazi bütövlüyünü tanımayacaq və bundan irəli gələn hadisələrin fəsadlarına İrəvan qatlanmalı olacaq: ”Bizim xoşniyyətli davranışımız şərt deyil ki, əbədi olacaq və şərt deyil ki, bu təkliflər əbədi masa üzərində qalacaq. Əgər bizim ərazi bütövlüyümüzü tanımaq istəmirlərsə, o zaman biz də onların ərazi bütövlüyünü tanımayacağıq” - deyən Prezident daha sonra əlavə edib ki, ”Amma mən qarantiya verə bilmərəm ki, bu, altı aydan sonra da eyni olacaq. İstəmirlər, yaxşı, olmasın, onda görərik nə olacaq”.

Bəli, Prezident İlham Əliyev ölkənin rəhbəri kimi 18 illik fəaliyyəti ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Və Prezident İlham Əliyevin uzaqgörən siyasətinin məqsədi Azərbaycanın hərtərəfli inkişafı, xalqımızın firavan həyatı, ölkənin 30 ilə yaxındır ki, pozulmuş ərazi bütövlüyünün bərpası idi. Bütün istiqamətlərdə qazanılan uğuların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi - işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi, ərazi bütövlüyümüzün bərpası və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və Ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Xüsusilə də, Azərbaycanın haqqın, ərazi bütövlüyü uğrunda apardığı İkinci Vətən Müharibəsində Azərbaycan xalqının 30 illik həsrətinə 44 gün ərzində son qoymaqla bütün dünyaya sübut etdi ki, ”Dağlıq Qarabağ problemi yoxdur!” deməklə Qarabağ Azərbaycanındır, Qarabağ Azərbaycandır! Çünki bu Qələbə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə güclü iqtisadiyyat, güclü dövlət, güclü ordu, rəşadətli əsgər və zabitlərimizin igidliyi ilə nail oldu, Azərbaycanı ərazi bütövlüyünə qovuşdurdu, tarixi ədaləti bərpa etdi.

Bu gün ordusu olmayan Ermənistan Azərbaycan üçün təhlükə mənbəyi ola bilməz, olduğu halda onların axırı İkinci Qarabağ müharibəsindəki kimi olacaqdır: ”Biz heç vaxt imkan verə bilmərik ki, xalqımıza, dövlətimizə, ərazi bütövlüyümüzə hər hansı bir təhdid yaradılsın. Ölkə hüdudlarından kənarda olsa da, əgər bu təhdidi biz görsək, heç kim bizi dayandıra bilməz. Necə ki, 44 gün ərzində nə qədər bizi dayandırmağa çalışdılar, nə qədər bizi hədələdilər, təzyiq etdilər, təhdid etdilər. Heç kim bizi dayandıra bilmədi”.

**RƏFİQƏ HÜSEYNOVA**

# YAP Gənclər Birliyinin "Viki Klub" layihəsinə start verilib

**Fevralın 17-də Yeni Azərbaycan Partiyasının (YAP) Gənclər Birliyi tərəfindən dünyanın ən böyük elektron ensiklopediyası hesab olunan Vikipediya platformasında Azərbaycanla bağlı mövcud məlumatların təkmilləşdirilməsi, təhrif olunmuş məlumatlara düzəlişlərin edilməsi və bu istiqamətlərdə fəaliyyət göstərən peşəkar şəxslərin sayının artırılması məqsədi ilə təşkil olunan "Viki Klub" layihəsinin açılış mərasimi olub.**













Çıxış edən YAP Gənclər Birliyinin sədr müavini Sevinc Qasımova bildirib ki, "Qorqud" Vikipediya metodik klubunun tərəfdaşlığı ilə baş tutan layihə çərçivəsində peşəkar Vikipediya təlimçiləri tərəfindən İKT sahəsindəki bilik və bacarıqları nəzərə alınmaqla seçilmiş 30 nəfər gənc 10 hissəli təlim prosesinə cəlb olunub. Onun sözlərinə görə, təlimlərin yekununda layihə iştirakçıları tam şəkildə Vikipediya platforması üzərindən yeni məqalələrin yaradılması, düzəlişlərin edilməsi və digər bacarıqlara yiyələnmiş olacaqlar.

"Qorqud" Vikipediya metodik klubunun eksperti Sübhan Xıdırzadə isə deyib ki, qarşıya qoyulan hədəflər böyükdür və layihə iştirakçıları ilə böyük işlərə nail olunacaq.

Bildirilib ki, ilkin olaraq 30 gəncin iştirakı ilə formalaşdırılan klub mütəmadi olaraq ölkəmizlə bağlı yeni məqalələrin hazırlanıb yerləşdirilməsi, o cümlədən mövcud yazıların təkmilləşdirilməsi prosesini həyata keçirəcək. Klubun fəaliyyətinə dair mütəmadi olaraq hesabatlar hazırlanacaq.

Sonra təlimlərə start verilib.

# Sevinc Fətəliyeva: Azərbaycanın beynəlxalq müstəvidə siyasi çəkisi əhəmiyyətli dərəcədə artmaqdadır

**"Azərbaycan Vətən müharibəsində qələbə qazanmaqla Cənubi Qafqaz regionunu sülh, sabitlik və əməkdaşlıq məkanına çevirmək istiqamətində həlledici addım atdı. Müharibədən sonra Azərbaycan bölgədə yeni reallıqlar yaratdı. Azərbaycan sülh müqaviləsinin imzalanması, kommunikasiyaların bərpası, Türkiyə ilə ortaq təşəbbüs əsasında "3+3" formatında yeni əməkdaşlıq platformasının yaradılması kimi istiqamətlərdə strateji fəallıq nümayiş etdirməklə regionda yeni düzən formalaşdırır. Bu geosiyasi fəaliyyət Cənubi Qafqazla məhdudlaşmır, bir çox dövlətlərin, o cümlədən güc mərkəzlərinin strateji maraqlarının olduğu regionları əhatə edir. NATO-nun Baş katibi Yens Stoltenberqin Azərbaycan Prezidenti İlham Əliyevə zəng edərək ikitərəfli münasibətləri, o cümlədən regiondakı vəziyyəti müzakirə etməsi də bu baxımdan dəyərləndirilə bilər". Bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.**



Deputat bildirib ki, Prezident İlham Əliyevin milli maraqlara və müasir çağırışlara uyğun xarici siyasət kursu Azərbaycanın beynəlxalq münasibətlər sistemində nüfuzunu əhəmiyyətli dərəcədə artırıb: "Həm ötən, həm də cari ilin siyasi-diplomatik mənzərəsini əks etdirən reallıqlar və hazırkı geosiyasi situasiya da onu göstərir ki, dünyanın nəzəri Azərbaycanda və regiondadır. Çünki Azərbaycanın yaratdığı geostrateji reallıqlar beynəlxalq ictimaiyyətin xüsusi diqqət mərkəzindədir. Bu isə Prezident İlham Əliyevin regionun yeni geosiyasi mənzərəsini müəyyən etdiyini göstərir. Fevralın 15-də NATO-nun Baş katibi Yens Stoltenberqin Prezident İlham Əliyevə zəngi, söhbət zamanı toxunulan məqamlar da bu reallığı ifadə edir. Telefon danışığı əsnasında Azərbaycan-NATO əlaqələrinin inkişafından məmnunluq ifadə olunub, Cənubi Qafqaz regionunda postmünaqişə vəziyyəti, Ukrayna ətrafında cərəyan edən proseslərə və dünya enerji bazarındakı mövcud duruma dair fikir mübadiləsi aparılıb".

S.Fətəliyevanın sözlərinə görə, son zamanlar Avrasiyanın ən önəmli strateji məntəqələrindən olan Xəzər-Qara dəniz geosiyasi hövzəsində qaynar proseslər və intensiv diplomatik trafikin fonunda Azərbaycanın barışdırıcı missiyası və fəal rolu diqqəti cəlb edir: "Xüsusilə də, ABŞ ilə Rusiya arasında Ukrayna gərginliyinin artması, hərbi qarşıdurma ehtimalının güclənməsi şəraitində Cənubi Qafqazın lider dövləti olan Azərbaycan konstruktiv strateji diplomatiyası ilə fərqlənir, çox mühüm təşəbbüslər və ideyalarla çıxış edir. Bu səpkidə bir neçə məqam xüsusilə diqqəti cəlb edir. Birincisi, Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 14-də Ukraynaya işgüzar səfəri tarixinə, geosiyasi əhəmiyyətinə görə bu baxımdan xüsusi önəm daşıdı. Səfər Xəzər-Qara dəniz strateji xəttində və Avrasiya geosiyasətində diplomatik trafikin ən vacib və mühüm halqalarından biri oldu. Prezident İlham Əliyevin siyasəti Azərbaycanın etibarlı - güvənli tərəfdaş, inam və etimad ünvanı olduğunu təsdiqləyir. Dövlət başçısı hər zaman vurğulayır ki, Azərbaycan toqquşma deyil, əməkdaşlıq məkanıdır. Azərbaycan Prezidentinin praqmatik strateji kursu müxtəlif geosiyasi qütblər - Rusiya, Amerika Birləşmiş Ştatları və digər güc mərkəzləri eləcə də Aİ, NATO, İƏT və başqa strateji birliklər tərəfindən müsbət dəyərləndirilir. Azərbaycanın paytaxtı Bakıda Rusiya və NATO-nun ali hərbi rəhbərlərinin görüşlər keçirməsi isə ölkəmizin strateji dialoq platforması kimi çıxış etdiyini göstərən faktlardandır. Elə son olaraq NATO-nun Baş katibinin Prezident İlham Əliyev ilə regional təhlükəsizlik və əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparması Azərbaycanın aparıcı yerini və rolunu göstərir. Bu düşünülmüş siyasət ölkəmizin regionda və beynəlxaql müstəvidə siyasi çəkisini əhəmiyyətli dərəcədə artırır".




# 2022-ci il Şuşanın dirçəlişi ilə yaddaşlarda qalacaq!

Azərbaycanın mədəniyyət paytaxtı olan, təməli 1752-ci ildə qoyulan, vaxtilə "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Zaqafqaziyanın konservatoriyası" adlandırılan Şuşa şəhəri bu gün tarixinin ən şərəfli və qürurlu günlərini yaşayır. Qırx dörd günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə həlledici təsir göstərərək Zəfər Günü kimi tariximizə yazıldı. Prezident İlham Əliyev 2020-ci il 3 dekabr tarixində hər il noyabrın 8-nin ölkəmizdə Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi və həmin günün bayram günləri sırasına daxil edilməsi barədə Sərəncam imzaladı.

Prezident İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində 2022-ci ili "Şuşa İli" elan etdi. Ölkə başçısı 2022-ci ilin yanvarın 5-də bununla bağlı xüsusi Sərəncam imzaladı. Sərəncamda qeyd olunur ki, Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynayıb. Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazıb.

Azərbaycan dövləti ərazi bütövlüyünü bərpa etdikdən dərhal sonra azad edilmiş ərazilərin bərpasına başlayıb və bu proses hazırda da geniş miqyas alır. Qarabağ və Şərqi Zəngəzur sıfırdan qurulur. İşğalçı Ermənistanın xarabalığa çevirdiyi, yer üzündən sildiyi şəhərlər, kəndlər, qəsəbələr yenidən tikilir. Azad edilmiş ərazilərdə ən müasir infrastruktur yaradılır, hava limanları, elektrik stansiyaları inşa edilir. Yüz kilometrlərlə yollar, su, işıq, qaz və digər kommunikasiya xətləri çəkilir. Vətən müharibəsində əldə edilən Zəfər nəticəsində Şuşada həyat yenidən dirçəlməyə başladı. Vaqif Poeziya Günləri və "Xarıbülbül" festivalı bərpa olundu. 2021-ci il mayın 12-13-də Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı olan Şuşa iyirmi doqquz ildən sonra yenidən "Xarıbülbül" musiqi festivalına evsahibliyi etdi. Prezident İlham Əliyev həmin günləri ölkəmizin tarixində əlamətdar günlər kimi dəyərləndirdi. Ölkəmizin başçısı uzun illərdən sonra Cıdır düzündə "Xarıbülbül" festivalının keçirilməsi münasibətilə xalqımızı təbrik edərək bildirdi ki, biz bu günü 30 il səbirsizliklə gözləmişik, 30 il Vətən həsrəti ilə yaşamışıq. Dövlət başçısı çıxışında qeyd etdi ki, bundan sonra biz Şuşada əbədi yaşayacağıq, Şuşanın bərpa edilməsinə artıq başlanılıb: "Xarıbülbül" festivalı bu qədim diyarımızda hər il keçiriləcək: "Biz Şuşanı quracağıq, bərpa edəcəyik, mənfur düşmən isə Şuşanı dağıdırdı. İndi siz - burada olan vətəndaşlar, dostlar gəzəcəksiniz, görəcəksiniz ki, Şuşa hansı dağıntılara məruz qalıb. Amma yenə də deyirəm, biz Şuşamızı, Ağdamımızı, Cəbrayılımızı, Füzulimizi, Zəngilanımızı, Qubadlımızı, Laçınımızı, Kəlbəcərimizi qəlbimizdə yaşatmışdıq. Dağıdılmış məscidləri biz bərpa edəcəyik, amma o məscidlər işğal dövründə bizim qəlbimizdə ucaldılmışdı. İndi isə biz burada, Cıdır düzündə - hər bir azərbaycanlı üçün müqəddəs olan yerdə yığışmışıq və bu musiqi bayramını, bu birlik bayramını, bu qayıdış bayramını, bu ləyaqət bayramını qeyd edirik".

Bu il Şuşanın 270 illiyi ilə əlaqədar bu unikal şəhərdə bir sıra beynəlxalq tədbirlər keçiriləcək. Həmin tədbirlərdə dünyanın bir sıra ölkələrindən nümayəndələr iştirak edəcəklər ki, bu da Azərbaycan mədəniyyətinin dünyada təbliği baxımından böyük rol oynayacaq. Eləcə də bu tədbirlər zamanı Şuşanın qədim tarixi, adət-ənənələri ilə bağlı bir sıra filmlər, videoçarxlar nümayiş olunacaq, sərgilər təşkil ediləcək. Bununla da dünya ictimaiyyəti bir daha Qarabağın əsl sahibinin Azərbaycan olduğuna və erməni yalanlarının dünyada ifşasına şahidlik edəcək.

*Zahid Rza*

# Paşinyanın komandası "günah keçisi" axtarışında



Normal olan ölkələrdə ordu generalları məğlubiyyətə görə günahlarından utanaraq özlərini güllələdiyi faktları dünya ictimiyyəti üçün sirr deyil. Bir çox hallarda gəmi kapitanlarının batmaqda olan gəmidə özlərini qurban verdikləri, xilasedicilərdən istifadə etmədikləri, birmənalı olaraq günahkar kimi özlərini cəzalandırmaları faktları barədə də çox bilirik. Yəni, həqiqətən də bəzi məqamlarda rəhbərlərin əksəriyyəti günahlarına görə birbaşa cavab verməli olduqlarının fərqində olublar ki, bunun da özlərinə cəza vermələri ilə nəticələndiyi bəllidir. Məsələ burasındadır ki, normal olmayan ölkə sayılan Ermənistanda müharibədə uduzan generallardan tutmuş, baş nazirə qədər, hətta qaçıb gizlənən müxalifətə qədər hamı məqam, vəzifə, üstün yerlər uğrunda vuruşurlar, amma nə utanmaq, nə də heç olmasa nəticə çıxarmaq niyyətində deyillər.

Çox gülünc bir mənzərənin şahidi oluruq ki, döyüş zamanı silahlarını, hərbi texnikalarını, papaqlarını belə qoyub qaçan, aradan çıxan erməni hərbçiləri indi, yəni təslim olmalarının fonunda döyüş bitdikdən sonra yumruqlarını yelləməkdən utanmırlar. Həm erməni siyasətçilərinin, həm də hərbi rəhbərlərinin açıq-aşkar uduzmasından, olmayan erməni tarixinin ən biabırçı məğlubiyyətindən sonra nə üzlə ortaya çıxdıqları sadəcə maraq doğurur. Əlbəttə ki, onlarda hansısa üzün olması da mümkün deyil, əks halda bunu bircə nəfər müşahidə edərdi və görərdi ki, məğlub olanlar özlərini elə məğlub kimi aparırlar, ağıllarına gələn kimi yox. Sözsüz ki, necə aparmaları nəyə isə dəlalət edən deyil, çünki, məğlubiyyət hər zaman, həmişə yetimdir. Məsələ burasındadır ki, sentyabrın 27-də başlayan və Ermənistan silahlı qüvvələrinin rüsvayçı məğlubiyyəti ilə nəticələnən 44 günlük müharibənin şəraitini öyrənmək üçün Ermənistanda Milli Məclisin İstintaq Komissiyasının yaradılması təşəbbüsü ilə hakimiyyət orqanları bu yetimin "atası"nı tapmağa çalışır.

Doğrudur, məğlubiyyətdə kimin günahkar olduğunu və necə deyərlər, kimin cəzalandırılmalı olduğunu təyin etmək heç vaxt gec deyil. Amma məğlubiyyətdən təxminən il yarım sonra 44 günlük müharibənin vəziyyətini araşdırmaq üçün komissiya yaratmaq heç də normal görünmür, tamam başqa mətləblərdən xəbər verir. Əslində, hələ də şokdan ayılmayan, buna görə də başını itirən erməni cəmiyyəti günahkarların tapılıb cəzalandırılmasını çoxdan tələb edir, amma, qeyd olunduğu kimi, yaşadığı şok səbəbindən bunun ardınca düşə biləmdi. Ermənistan rəhbərliyi də bundan sui istifadə edərək, günahkarların tapılıb cəzalandırılması istiqamətində məsuliyyətli iş aparmadı. Çünki, bu hakimiyyət bilavasitə özünün günahkar olduğunu hamıdan yaxşı bilir və öncə qeyd olunduğu kimi nə kapitanların özlərini gəmidən atmaq fikrində olduqları, nə də hərbçilərin özlərini güllələmək niyyətinə düşdükləri müşahidə olunmur. Əksinə, onlar vəzifə iddialarındadırlar, sanki bunlar mükafatlandırılmalı imişlər. On minlərlə erməninin qanına susayan, ölümünə bais olan Arayik Arutyunyandan tutmuş, müdafiə naziri Tonoyana, Ermənistanın Silahlı Qüvvələrinin keçmiş Baş Qərargah rəisi Onik Qasparyana, müharibə zamanı döyüş bölgəsində bircə dəfə də olmayan Milli Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryana, dabanına tüpürüb qaçan erməni ordu generallarına, rəislərinə qədər hamısı vəzifə eşqinə düşüblər, ittiham olunmalarını yox, məqamlarının ucaldılacağını gözləyirlər, hətta görünən odur ki, buna iddialıdırlar da. O zaman, günahkar kimdir və Ermənistan tərəfi günahkar axtaranda kimi nəzərdə tutur? Bəlkə Ermənistan hökuməti özünü mühakimə edəcək? Şübhəsiz ki, buna nə inanan olar, nə də normal yanaşan.

Bəli, yenə də normal ölkələri misal çəkmək lazım gəlir və bu rakursda da diqqətə çatdırmaq yerinə düşərdi ki, müharibədəki məğlubiyyətindən, itgilərindən sonra hərhansı bir ölkənin hökuməti istefa verir. Amma, bir daha qeyd edək ki, normal ölkələrdə bu belədir. Ermənistanda isə tamam başqa şeylər müşahidə olundu. Müharibədə məğlub olan hakimiyyət dərhal növbədənkənar seçkilər elan etdi, hətta seçkiləri "uğurla" keçirən hakimiyyət qalib də gəldi. İndi də erməni generalları özlərinə "layiq bildikləri" yerlər uğrunda vuruşurlar. Yenə də həmin sual təkrar olaraq ortaya çıxır ki, bu Ermənistan hakimiyyəti kimi günahkar elan etmək qərarındadır və kimi günhkar biləcək? Bəlli olur ki, bu hakimiyyət Ermənistanda Milli Məclisin İstintaq Komissiyasının yaradılması təşəbbüsü ilə sadəcə "günah keçisi" axtarışındadır. Təbii ki, belə olan halda nəinki Ermənistan müxalifətinin, heç adi vətəndaşlarının da, əhalisinin də bu komissiyaya zərrə qədər inanmaz ola bilməz. Buna ümumiyyətlə heç kim inanmaz axı.

Tutaq ki, bir-iki nəfəri elə həbsdə olan Tonoyanın yanında oturtmaq niyyəti var işğalçı ölkə hakimiyyətinin, bəs siyasi qərarlardan tutmuş, silahlanmaya, kəşfiyyata, nəzarətə, qərarların qəbulunda yol verilən nöqsanlara qədər Ermənistan tərəfində buraxılan səhvlərə görə cavabdehlik nəzərdə tutulmurmu? Görəsən, Şuşada içkinin təsirindən başı dumanlanaraq şıllaq atıb oynayan, sonra da ağlına gələni sayıqlayan, məsələnin danışıqlar yolu ilə həllinə əngəl olan, nəticədə müharibənin başlamasına baiskar olan Paşinyanın məsuliyyəti, onun günahkarlığı ümumiyyətlə nəzərdə tutulmurmu? Maraqlıdır, baş nazir və erməni silahlılarının baş komandanı kimi məğlubiyyətdə məsuliyyət daşıyan Paşinyanın özünə qarşı, lap elə üzünə komissiya üzvlərindən hansınınsa cəsarəti çatacaqmı ki, ittiham irəli sürə? Siyasəti də, hərbi məsələləri anlamayan, əsgərlərə çiyələk paylayan, işğal etdikləri torpaqlarda sərxoş vəziyyətdə şıllaq atıb oynayan birinə ittihamın irəli sürüləcəyi gözlənilərdimi? Heç inandırıcı görünmür və bu ölkənin kütləvi informasiya vasitələrində yazılanlanlar, yayımlananlar təsdiq edir ki, buna heç ermənilər özləri də inanmırlar. Belə olan halda bu ölkədə yaradılan həmin o komissiya, yaxud Ermənistan hakimiyyəti kimin axtarışındadır, günah keçisinin?

*İnam Hacıyev*

# "3+3" formatı regiona nə verəcək?

***""3+3" formatı regional inkişaf üçün çox böyük zəminlər yaratmaq gücündədir. Azərbaycanın 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda yeni reallıqlar yarandı. Bu reallıqlar tək ölkəmiz üçün deyil, ümumiyyətlə bütün dünya üçün əhəmiyyətli zəmin yaradıb". Bu sözləri SİA-ya açıqlamasında deputat İlham Məmmədov deyib.***

*Onun sözlərinə görə, bu gün "3+3" formatı gündəmə gəlib: "Çünki bunun mərkəzində əlbəttə ki, Azərbaycan, Gürcüstan və Ermənistan dayanırsa, onun kənarında Rusiya, Türkiyə və İran dayanır. Azərbaycan Cənubi Qafqazın siyasi, iqtisadi və hərbi cəhətdən lideri olmaqla "3+3" formatının həm özəyində, həm də kənar halqasında çox həlledici bir mövqeyə malikdir. Azərbaycan Cənubi Qafqazdakı konflikti uğurla həll etməklə, həmçinin Cənubi Qafqazda sülh, təhlükəsizlik və inkişaf üçün də zəmin yaradıb. Elə "3+3" formatı buna əsaslanır".*

*Deputat həmçinin qeyd edib ki, alıcı qabiliyyəti, prioritetləri götürsək, "3+3" formatı ümumiyyətlə həm Avrasiya İttifaqı ölkələri üçün, həm Asiya ölkələri üçün bir yoldur: ""3+3" formatı 331 milyona yaxın təxminən əhalisi olan bir bölgənin böyük iqtisadi kommunikasiyalarının inkişafı deməkdir. Hesab edirəm ki, bu baxımdan "3+3" formatı yaranmış yeni reallıqları özündə əks etdirən geosiyasi platformadır. Bu platformada iqtisadi və siyasi baxımından vaxtında istifadə etməklə regionda və dünyada sülhün təhlükəsizliyini və iqtisadi əməkdaşlığın yarnması üçün böyük bir platformanı görmüş olarıq. Bu platformanın formalaşdırılması ilə regionda sülhün bərqərar olması və iqtisadi-siyasi əlaqələrin genişləndirilməsinə böyük bir dəstək olacaq".*

*Arzu Qurbanzadə*

# Tarixi ərazilərimiz turizm potensialının inkişafına mühüm töhfə verəcək

**Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi Qələbədən sonra işğaldan azad olunan ərazilərdə abadlıq quruculuq işlərinə başlanılıb. Qarabağın işğaldan azad olunmasından qısa müddət ötməsinə baxmayaraq, bu tarixi torpaqlarımızın dirçəldilməsi prosesi sürətlə davam etdirilir. Bu prosesdə diqqət yetirilən əsas sahələrdən biri də işğaldan azad olunmuş ərazilərimizdə turizmin inkişaf etdirilməsidir. Qarabağda bölgə iqtisadiyyatının dirçəldilməsi yaxın gələcəkdə bu diyarın yenidən bütün Cənubi Qafqazın inkişaf edən mədəniyyət və turizm mərkəzlərindən olacağını deməyə əsas verir.**



Əlbəttə ki, Azərbaycan inkişaf etmiş turizm ölkəsidir. Ölkəmizin flora və faunası, zəngin tarixi mədəniyyət abidələri Odlar diyarını xarici turistlər üçün cəlbedici edib. Azərbaycanın dinamik inkişafı, ölkəmizdəki əsaslı dəyişikliklər, respublikamızın siyasi-iqtisadi və mədəni mərkəz, qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı kimi çıxış etməsi ölkəmizin dünyada olan imicini daha da yüksəldib.

Bütün sahələrdə həyata keçirilən layihələr Azərbaycanın hər bir bölgəsində turizm







üçün geniş imkanlar açıb. Azərbaycanın hər bir bölgəsi turizm üçün yararlıdır. 30 ilə yaxın erməni işğalı altında olan torpaqlarımızın da turizm potensialı genişdir. 44 gün davam edən Vətən müharibəsində işğalçı Ermənistan üzərində parlaq qələbə işğal altındakı tarixi torpaqlarımızın azad olunmasını təmin etmiş oldu. Bu gün işğaldan azad olunmuş Ağdam, Füzuli, Cəbrayıl kimi rayonların turizm potensialı böyükdür. Bu ərazilərdə aparılan abadlıq-quruculuq işləri turistlərin diqqətini həmin məkanda olan flora və faunaya, mədəniyyət abidələrinə cəm edəcək. Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki türbələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və s. daş yaddaşımızdır. Ermənilərin qurbanına çevrilən abidələrimiz tezliklə bərpa və təmir ediləcək, şəhərlərimiz müasir məkan olaraq turistlərin diqqətində olacaqdır. İlk insan məskənlərindən olmuş məşhur Azıx mağarası, Qaraköpək, Üzərliktəpə kurqanları, Şuşada Tarix Muzeyi, Daş Sənətkarlığı Muzeyi, Dərman Bitkiləri Muzeyi, Mir Möhsün Nəvvabın ev muzeyi və s. çoxsaylı turistlərin ziyarətgahına çevriləcək. Bu onu deməyə əsas verir ki, yaxın zamanlarda Azərbaycanın turizm məkanlarının coğrafiyası daha da genişlənəcəkdir.

Öz təbii sərvətləri ilə seçilən torpaqlarımızın səfalı və müalicəvi əhəmiyyət daşıyan yerləri, flora və faunasının başqa bir abhavası var. Kəlbəcər rayonu ərazisindəki İstisu mineral suları, Şuşanın Cıdır düzü və saymaqla bitib-tükənməyən nümunələri böyük maraq doğurur. Dövlət başçısı İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək.

Bildiyimiz kimi, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində "Qarabağ" hoteli istifadəyə verildi. 1980-cı ildə inşa edilən hotelin binası 1992-ci ilin mayında Şuşa şəhərinin işğalı nəticəsində öz fəaliyyətini dayandırıb və baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşüb. Şuşa şəhəri müzəffər Azərbaycan Ordusunun şanlı Zəfəri nəticəsində Ermənistanın işğalından azad edildikdən sonra 2021-ci ildə Prezident İlham Əliyevin tapşırığına əsasən, hoteldə təmir-bərpa və yenidənqurma işləri həyata keçirilməyə başlandı. Müasir səviyyəyə çatdırılan hoteldə Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün hər cür şərait yaradılıb. Burada müxtəlif kateqoriyalı otaqlar var. Binada restoran və bar qonaqların ixtiyarına veriləcək. Oteldə işgüzar görüşlərin və tədbirlərin keçirilməsi üçün konfrans otağı yaradılıb.

### AĞDAM CÜMƏ MƏSCİDİNDƏ BƏRPA İŞLƏRİ TARİXİ GÖRÜNÜŞƏ UYĞUN OLARAQ HƏYATA KEÇİRİLİR

İşğaldan azad olunan ərazilərimiz sırasında Ağdam da var ki, 27 ildən sonra günəş şüaları ilə nurlanmış bu şəhər yeni dövrünə qovuşub. 20 noyabr 2020-ci il tarixində Ağdam rayonu Azərbaycan Respublikasına qaytarıldı. Rayonun ərazisində qədim tarixə malik yüzlərlə memarlıq və incəsənət abidələri vardır. Buradakı tarixi memarlıq abidələri, yaşayış məskənləri, sərdabələr, kurqanlar və s. müxtəlif tarixi dövrləri əks etdirən nadir nümunələrdir. Rayonun onlarla tarixi yaşayış məskənləri Eneolit dövründən günümüzə kimi gəlib çatmışdır. Buranın hər bir daşı tarixi dövrləri əhatə edir və əlbəttə ki, turistlər üçün cəlbedicidir. Bu sırada Ağdam Cümə məscidin də xüsusi yeri var. Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Ağdama səfər zamanı Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişatı ilə tanış olublar.

Qeyd edək ki, Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Bu məscid Ağdamın işğal altında olduğu müddətdə şəhərdə ermənilər tərəfindən dağıntıya nisbətən az məruz qalan yeganə tikilidir. Cümə məscidinin bərpa-restavrasiyasına Heydər Əliyev Fondu tərəfindən başlanılıb. Layihənin icrası üçün Avstriyanın "Brugger&KO Restauratoren GmbH" şirkəti ilə müqavilə imzalanıb. İlk addımda örtük və sement birləşmələri tamamilə çıxarılacaq. Tarixi kərpiclərin zədələnməməsi və kompozitin divardan qopmaması üçün işlər əl ilə aparılacaq. Bərpa prosesinin ikinci mərhələsində fasadlar biogen böyümədən təmizlənəcək, zədələnmiş və ya qırılmış kərpiclər bərpa ediləcək, karxana daşı hörgüsü əhəng əsaslı birləşmiş məhlul ilə yenidən işarələnəcək.

### AĞDAM ŞƏHƏRİNDƏ İNŞA OLUNACAQ "PARK FOREST OTEL AĞDAM" MEHMANXANASI 2024-CÜ İLDƏ İSTİFADƏYƏ VERİLƏCƏK

Əlbəttə ki, Ağdamın turizm məkanlarından söz açarkən, Ağdam Çörək muzeyini xüsusi olaraq qeyd etməliyik. Azərbaycanın Ağdam şəhərində yaradılan Çörək muzeyi 25 noyabr 1983-cü ildə ilk ziyarətçilərini qəbul etmişdi. Muzeydə 2800-ə yaxın eksponat vardı. Qarabağ müharibəsində Ermənistan Silahlı Qüvvələrinin hücumları nəticəsində muzeyə iki dəfə mərmi düşmüşdü. İlk atılan mərmi üçüncü sərgi zalına düşsə də, partlamamışdı. Digər mərmi isə 1992-ci ilin avqust ayının 12-də Əsgəran rayonunun Xanabad və Naxçıvanik kəndi istiqamətindən atılan zaman muzeyə düşərək, muzeyi tamamilə məhv etmişdir. Nəticədə muzeydə olan 1500-dək eksponat yanaraq məhv olmuşdur. Onu da vurğulamaq yerinə düşər ki, 1980-cı illərdə Ağdamda keçirilən "Natəvan" qızlar bayramı, "Xarı Bülbül" beynəlxalq festivalı məhz muzeyə baxışla başlanarmış. Hər daşı bir tarix olan Ağdam şəhəri öz keçmiş imicini yenidən özünə qaytaracaq və Azərbaycanın turizm bölgəsi kimi Ağdamın da bu sırada öz yeri və payı olacaqdır.

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Ağdam şəhərində inşa olunacaq "Park Forest Otel Ağdam" mehmanxanasının təməlinin qoyulması fikirlərimizi əsaslandırır. 2,16 hektar ərazidə inşa ediləcək "Park Forest Otel Ağdam" mehmanxanası 110 nömrədən ibarət olacaq. Mehmanxananın ərazisində əsas bina ilə yanaşı, konfrans mərkəzi, açıq havada üzgüçülük hovuzu, uşaq oyun meydançası, gəzinti yolları və istirahət zonaları yaradılacaq. Tikinti işlərinin 2024-cü ilin dekabrında başa çatdırılması nəzərdə tutulub.

Son illər Azərbaycanda turizmin inkişafı istiqamətində böyük işlər görülsə də, ölkəmizin ən böyük turizm potensialına malik Qarabağ bölgəsi işğal altında olduğundan bu proseslərdən kənarda qalmışdı. İlin dörd fəslində füsunkar təbiəti ilə qonaqları heyran edən, saf havası, müalicəvi suları, tarixi abidələri ilə dillərdə dastan olan bu diyar Müzəffər Ali Baş Komandanın qətiyyəti və Ordumuzun rəşadəti sayəsində artıq düşmən tapdağından azad edilib.

Strateji mövqeyinə görə, Qarabağın giriş qapısı hesab edilən Ağdam rayonunda ən müasir standartlara cavab verən mehmanxananın inşası sürətlə dirçəldilən tarixi ərazilərimizin turizm potensialının inkişafına mühüm töhfə verəcək. Bu, həm də işğaldan azad edilən ərazilərimizdə, o cümlədən Ağdam rayonunda sosial layihələrin davamlı şəkildə həyata keçirilməsinin növbəti göstəricisidir.

**_Zümrüd BAYRAMOVA_**

# Artsrun xəyalları hələ də Hadrutda qalıb

*Köhnə şakəri istefada olan erməni polkovnikinin sərsəm beynini tərk etməyibmiş...*

***"150 min şəxsi heyəti olan super müasir erməni ordusu türklərə güclü zərbə endirə bilər". SİA xəbər verir ki, bu sərsəm fikirləri 25TV-nin "İntervyu" proqramına müsahibəsi zamanı istefada olan polkovnik, 44 günlük İkinci Qarabağ müharibəsi dövründə Ermənistan müdafiə nazirliyinin sözçüsü Artsrun Ovannisyan deyib.***



Onun sözlərinə görə, bəşəriyyət və müasir dövlətlər 6-cı nəsil fazasına daxil olur və bu, müəyyən mənada sənaye inqilabı və texnoloji tərəqqi sayəsində baş verir.

Ovannisyan hesab edir ki, ermənilər məhz bu çərçivədə ordu qurmalı, hədəfləri müəyyən etməli, yol xəritələrini realizə etməlidirlər. Onun sözlərinə görə, belə bir imkan ermənilərdə var, amma ilk növbədə təhsilin keyfiyyətində aksent qoymaq lazımdır və s.

Əslində, 44 günlük müharibə vaxtı döyüş ruhu ən yüksək səviyyədə olan, həmçinin ən müasir hərbi-texniki vasitələrlə, silahlarla təmin edilmiş Azərbaycan Ordusu qarşısında döyüşmək üçün qorxaq, saysız-hesabsız fərariliklər ilə ad çıxarmış erməni əsgər və zabitlərini özünün pafoslu bəyanatları sayəsində açıq-aşkar "ət maşınının" ağzına verən Artsrun Ovannisyanın erməni ordusunun sonrakı müddətdə hansı fazada inkişaf edib-etməyəcəyi ilə bağlı fikirləri maraqlı deyil və bundan sonra erməni ordusunun inkişaf etməsi də mümkün görünmür.

Lakin onun köhnə şakəri hələ də şkalaları vurub-keçir və onun "150 min şəxsi heyəti olan super müasir erməni ordusu türklərə güclü zərbə endirə bilər" tipli ifadəsi hətta erməni ictimaiyyətində gülüşlə qarşılanıb. Görünür, Artsrununun xəyalları hələ də Hadrutda qalıb...



*Rövşən RƏSULOV*

## Amerikalı mer Xocalı soyqırımına dair bəyannamə imzalayıb

ABŞ-ın Florida ştatının Hallandeyl Biç şəhərinin meri Coy Kuper Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar bəyannamə imzalayıb. Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, Azərbaycan icmasına ünvanlanmış bəyannamədə deyilir ki, 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı başladığı hərbi təcavüz və etnik təmizləmə siyasəti nəticəsində erməni silahlı birləşmələri sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıya hücum edib və dinc əhaliyə qarşı dəhşətli qətliam törədiblər. Nəticədə 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca erməni hərbçiləri tərəfindən qətlə yetirilib. Bəzi ekspertlər Xocalı faciəsini "Azərbaycan Srebrenitsası" adlandırırlar. Diqqətə çatdırılıb ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 822, 853, 874 və 884 saylı qətnamələr qəbul edib. Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün BMT Baş Assambleyası, Avropa Parlamenti, AŞPA, ATƏT, ABŞ Dövlət Departamenti və Ağ ev tərəfindən dəstəkləndiyi xüsusi vurğulanıb. Coy Kuper bəyannaməni Floridada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatının nümayəndələrinə təqdim edib.

# "Araik Arturyan kimi cinayətkarların həbsi mütləq xarakter daşıyır"

"Ermənilər Xankəndində prezident seçkilərinin keçirilməsi ilə bağlı məlumatlar paylaşırlar. Separatçı quldurbaşı Araik Arturyanın bir sıra cinayət əməlləri ilə bağlı Ermənistanın mətbuatında məlumatlar dərc olunur. Qeyd olunmalıdır ki, bir dəfə separatçı qurumda prezident seçkilərinin "inaqurasiyası"nın icra olunması Vətən müharibəsi ilə nəticələndi və azərbaycanlıların hissiyyatına toxunan, ikrah hissi doğuran bu kimi addımlar nəticədə ikinci Qarabağ müharibəsinə gətirdi". Bunu SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov bildirib.



Onun sözlərinə görə, hazırda da bu kimi "seçkilərin" keçirilməsi rəsmi Bakı tərəfindən diqqətlə izlənilir: "Bu gün geosiyasi reallıqlar vardır və Azərbaycan tərəfi, Azərbaycanın işğalda olan torpaqlarını azad etmişdir. Eyni zamanda, həm də bu gün Qarabağda kompakt yaşayan ermənilər qarşısında yeni prialitetlər də formalaşmaqdadır. Ermənistan əgər rasional şəkildə addım atarsa onda Türkiyə ilə də sərhədlərin açılması Azərbaycanla kommunikasiyaların bərpası daha cəlb edici təkliflərdir və bu təkliflər region xalqlarının rifahına xidmət edir. Araik Arturyan kimi cinayətkarların isə cinayət məsuliyyətinə cəlb olunması mütləq xarakter daşıyır. Çünki Vətən müharibəsi zamanı çox saylı hərbi cinayətlər törətmiş şəxslərin məsuliyyətə cəlb olunması bu gün siyasi gündəlikdədir. Gəncə, Bərdə terroru, Tərtərin və digər və Azərbaycan şəhərlərinin raket atəşinə tutulması faktı ilə bağlı olan şəxslərin məsuliyyətə cəlb olunması həyata keçirilməlidir. Bu xüsusda təbii ki, cinayətkar Araik Arturyan da çoxsaylı cinayət əməlləri törətmişdir. Onun saxta prezident statusunun ləğvdən sonra əməliyyat istintaq tədbirləri həyata keçirilməli və onun həbsi icra olunmalıdır".

*Gülyana*



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Çıxış yolu məhz budur!

Bu günlərdə Suqovuşandan çıxaraq Kəlbəcərə doğru istiqamət alan Azərbaycan Ordusuna məxsus hərbi kalonun və inşaat materialları daşıyan yük maşınlarının Ağdərə-Kəlbəcər yolunun üzərində 200 nəfərə qədər separatçı ermənilər tərəfindən öz avtomobilləri ilə kəsmələri, eləcə də Rusiya sülhməramlılarının yaranmış təxribata rəğmən ermənilərin yolu açmaması hərbi kalonumuzun geriyə - Suqovuşana dönməsi ilə nəticələndi. Və diqqətçəkən məsələ budur ki, bənzər hadisə artıq bir neçə dəfə yaşanıb. Təxminən 8-9 gün öncə də kalonlarımızın qarşısı erməni separatçıları tərəfindən kəsilmişdi. O cümlədən, Laçın dəhlizi istiqamətində isə erməni separatçısı hərbçilərimizə qarşı silahdan istifadə etməyə cəhd göstərmişdi. Bütün bu kimi hadisələrin qarşısının alınması üçün isə yeganə vasitə yolu qalır və bu vasitənin nədən ibarət olduğu hər kəsə gün kimi bəllidir.

### Bu barədə yazının sonunda qeyd edəcəyik

Lakin bütün bu kimi olaylar fonunda Qarabağdakı erməni separatçılarının gah özlərinə məxsus "təhdid" dilləri ilə gülünc bəyanatlar səsləndirmələri, gah Rusiya sülhməramlılarının arxalarından "barmaq silkələmələri", gah da utopik xəyallara dalaraq özlərini Abxaziya, Cənubi Osetiya, "DNR", "LNR" separatçıları ilə bir tutmaları suallar yaradır, özü də çox ciddi suallar!

Həyasızlaşmış erməni separatçılarının saxta "parlamentlərində" Azərbaycanın müharibə yolu ilə azad etdiyi torpaqları ilə yanaşı, digər ərazilərimizi də "işğal olunmuş ərazilər" kimi "tanıması" artıq oxun yaydan çıxması anlamını daşımağa başladıb. Üstəlik, fevral-may aylarında mülki əhalinin atəş hazırlığı təlimlərinə cəlb edilməsi ilə bağlı verilən qərar da belə nəticə hasil edir ki, bu mənfurların ən yumşaq şəkildə ifadə etsək, burunlarının ovulma, başlarının isə əzilmə vaxtları çatıb, özü də təcili!

Əbəs deyil ki, bu gün onların Ermənistandakı havadarları, xüsusilə, revanşist dairələrin əllərində fəaliyyət göstərən KİV-lər "Artsax" adlı saxta "qurumun" Rusiya tərəfindən tanınması ətrafında müzakirələr açırlar, Qarabağda yaşayan ermənilərə Rusiya pasprotlarının verilməsi ətrafında diskusiyalar keçirirlər. SİA buna misal olaraq "Armenianreport" saytında "Artsaxın Abxaziyadan, Cənubi Osetiyadan, "DNR"dən, "LNR"dən nə ilə fərqlənir?" başlıqlı yazıdakı sərsəm fikirləri diqqətə çatdırır. SİTAT: "Fərq ondadır ki, həmin "respublikalardan" fərqli olaraq orada (yəni Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazilərdə-R.R.) rus pasportlarını kütləvi şəkildə paylamayıblar. Digər məsələlərdə isə Rusiya "Artsaxın" müstəqilliyini çoxdan tanıya bilərdi. Onun bu addımı həyata keçirməsi üçün 25 il vaxtı var idi... Ancaq Rusiya bu illər ərzində öz pasportlarını "Artsaxda" paylamadı. O, "Artsaxın" müstəqilliyini tanımadı. O, müharibənin ilk günlərindəcə həmin addıma getmədi..."

Təbii ki, adıçəkilən erməni saytı burada "Azərbaycan-Türkiyə-Pakistan ordularının" sübuta yetirilməyən birgə "hərbi əməliyyatları" və Yaxın Şərq "terrorçularının" balaca "Artsaxı" necə əzmələri barədə saxta "məzlumkeşliyi", "əzabkeşliyi" haqqında da başına-dizinə döyərək yazmağı unutmayıb. Axı bu cür şivənçiliklərlə gündəmdə qalmaq onların köhnə şakərləridir!

Beləliklə, göründüyü kimi, separatçılar 30 ildir onlara havadarlıq edən Ermənistanın onları tanımamasını bir kənara qoyub, indi də Rusiyanı ortaya atırlar və bu faktın özü də əsl erməni həyasızlığının maksimal göstəricilərindən biri kimi qiymətləndirilə bilər. Onlar iddia edirlər ki, guya Rusiya bu addımı atsaydı, sən demə, müharibə-filan da olmayacaqmış və s.

Yalnız bütün bunlar sadəcə və sadəcə ölüm ayağında olan tanınmayan bir quldur, terrorçu rejimin hay-haraylarıdır, ölüm hayqırtılarıdır və söz yox ki, onun son vaxtları çatıb, sadəcə, həmin sonluğa birdəfəlik nöqtə qoymaq üçün cəmi bircə addım qalıb. Bəs nədir həmin addım?

**1.** Azərbaycan ərazisində mövcud olan terrorçularla və qanunsuz silahlılarla heç bir danışıqlara gedilməməli, onların rəy və tələbləri birmənalı olaraq rədd edilməlidir!

**2.** Onların istənilən cinayət tərkibli əməllərinə onqat cavab verilməlidir.

Azərbaycan respublikasının ərazisində olan İstənilən silahlı və ya silahsız quldur heç bir xəbərdarlıq edilmədən məhv olunmalıdır!

**3.** Suveren ərazilərimizdə təhdid yaradan istənilən separatçı - quldur dayaq nöqtələri, istehkamları, səngərləri nöqtə zərbələri endirilməklə dağıdılmalı, texnikaları məhv edilməlidir!

**4.** Əlinə silah alaraq Azərbaycan hərbçisini, mülkisini hədəf seçən hər bir erməni qulduru bilməlidir ki, onu yalnız ölüm gözləyir və bu qorxu onda olmalıdır!

Nəticə: Separatçı-quldurlara nə qədər humanist davranılırsa, onlar daha da azğınlaşır, quduzlaşır və həyasızlaşırlar. Çıxış yolu yalnız budur!



# SORĞU

# Qidaların keyfiyyəti insanları qane edir?

## ŞƏHƏR SAKİNLƏRİNİN FİKİRLƏRİ

**Qida və ya qida məhsulları - orqanizmin xaricdən qəbul etdiyi üzvi və qeyri-üzvi maddələr yığımıdır. Qidalar çox sadə kimyəvi maddələrdən mürəkkəb üzvi birləşmələrə qədər geniş miqyasda çeşidlilik göstərir. Deməli, qidalar bizim həyatımızda böyük bir yerə sahibdir. Buna görə də qəbul etdiyimiz qidaların keyfiyyəti də orqanizmimiz üçün böyük əhəmiyyət daşıyır. Bəs hazırda qidaların keyfiyyəti hansı səviyyədədir? Vətəndaşları qane edirmi? SİA olaraq mövzu ilə bağlı vətəndaşların fikirlərini öyrəndik:**

**Şəhər sakini Günel İsaqova:** "Azərbaycanda qidaların keyfiyyəti, əslində, məni qane edir. Bildiyimiz kimi, qidaların böyük bir hissəsi xarici ölkələrdən gəlir. Keyfiyyət qane etsə belə, qiy-



mətləri qane etmir. Çünki son zamanlarda artımlar çox oldu. Bir tələbə olaraq, təbii ki, bu prosesin çətinliyi bizi də narahat edir. Əminəm ki, bu proses bir çoxlarımızı narahat edir. Amma ümumi olaraq keyfiyyətlə bağlı bir problem olmadığını düşünürəm".

**Şəhər sakini Qəşəm Kərimov:** "Hazırda bir çox qidanın keyfiyyəti məni qane etmir. Çünki qidaların bir çoxu xəstəlik mənbəyinə çevrilib. Xüsusilə də yağ, un kimi məhsulların keyfiyyəti ilə bağlı problemlər



çoxdur. Hər biri xaricdən gəlir və keyfiyyəti də məlum deyil. Xüsusilə də, İran və Rusiyadan gələn məhsulları, ümumiyyətlə, almamağa çalışıram. Lakin yerli məhsullarımızın keyfiyyətindən məmnunam".

**Şəhər sakini Samirə Gülməmmədova:**

"Azərbaycanda mağazalarda satışda həm yerli, həm də xarici məhsullar var. Xarici məhsulların keyfiyyəti isə məlum deyil. Buna görə təbii ki, bizi qane etmir. Öz



məhsullarımıza daha çox üstünlük veririk. Lakin bir çox məhsullar var ki, onların istehsalı, ümumiyyətlə, ölkəmizdə yoxdur. Bu zaman artıq məcbur qalırıq ki, mənşəyindən əmin olmadığımız və keyfiyyətini bəyənmədiyimiz nisbətən bahalı olan məhsulları alaq".

**Şəhər sakini Namiq Məmmədov:** "Qi-



daların keyfiyyəti məni qətiyyən qane etmir. Öz yerli məhsullarımıza daha çox üstünlük verirəm. Amma bu da tam olaraq məni qane etmir. Xüsusilə də şirniyyatlarda daha çox xarici məhsulların keyfiyyəti yaxşı olur. Lakin onlar da olduqca baha olur. Büdcəyə uyğun olmadığı üçün də almaq mümkün olmur".

**Şəhər sakini Ceyran Kazımova:**

"Xüsusilə ət və toyuq məhsullarının keyfiyyəti qane etmir. Öz məhsullarımıza isə



daha çox üstünlük verirəm. Çünki xarici məhsullar bir neçə müddət gömrükdə daha sonra isə depoda gözləyir. Təbiidir ki, keyfiyyətli məhsul belə bu qədər müddət keyfiyyətini itirir. Buna görə də öz yerli məhsullarımıza üstünlük verirəm".



**Şəhər sakini Nailə Svetlanova:** "Axır vaxtlar qidaların keyfiyyətində müsbətyönümlü irəliləyişin olduğunu düşünürəm. Mən həm xarici, həm də yerli məhsullardan istifadə edirəm. Süd və ət məhsullarında isə yerli mala daha çox üstünlük verirəm".

**Şəhər sakini Nizami Aslanov:** "Qida sənayesinin istehsal etdiyi məhsullar bizə xaricdən gələn məhsullardan demək olar ki, geri qalmır. Əksinə, bəzi hallarda yerli məhsullarımızın keyfiyyəti daha yaxşı olur. Ümid edirəm ki, qida sənayesində daha da inkişaf edəcəyik".



**Şəhər sakini Həqiqət Hüseyova:** "Məhsulların keyfiyyəti ilə bağlı böyük bir problem yoxdur. Lakin bəzi hallarda mağazalarda vaxtı keçmiş məhsullar da satılır. Bu da təbii ki, insanların sağlamlığına müəyyən təsirlər göstərir".

**Şəhər sakini Rüzgar Ağzadə:** "Qidaların keyfiyyəti məni qane etmir. Çünki bir çoxları orqanizmə olduqca ziyanlıdır. Təbii ki, böyük bir problem yaşamamışam. Lakin məlumdur ki, keyfiyyətsiz qidalar müəyyən problemlərə səbəb olur".

**Şəhər sakini Paşa Məmmədov:** "Məhsulların keyfiyyətindən qətiyyən razı deyi-



ləm. Böyük bir problem yaşamamışıq. Amma nə qədər yaxşı məhsul almağa çalışsaq belə, yenə də bir çox məhsulun keyfiyyətindən razı deyiləm".

***Səbinə Hüseynli***

# Ermənistanda anti-türk təbliğatı: Sifarişçi kimdir?

**Son günlər Ermənistanda anti-türk, antiazərbaycan təbliğatına yenidən start verilib. Doğrudur, bu münasibət əvvəllər də var idi, amma indiki vəziyyət, indiki yanaşma bütün çalarları ilə fərqlənir. Bəs, məğlub, işğalçılıq siyasətinin qurbanı olan Ermənistanda nə baş verib ki, türklərə qarşı yenidən aqressivləşiblər? Hər halda yeni təbliğat maşınının sükanı arxasında kənar qüvvələrin olmadığını söyləmək düzgün olmaz. Bu vəziyyət idarəolunandır. Ermənistanda buna maraqlı mərkəzlərdən birinin 5-ci kolonu olduğu deyənlər də var. İstənilən halda, bu təbliğat həm də Azərbaycanla və Türkiyə ilə bağlanma ehtmalı çox olan sülh müqaviləsinə etiraz edənlərin tərtibi də ola bilər. Hər halda, qarşıdakı hadisələrin, eyni zamanda fevralın 14-də Türkiyənin Antaliya şəhərində keçiriləcək görüşlərdə Ermənistan tərəfinin iştirakının anti-türk emosiyasının artmasına təsiri az deyil.**

İkinci bir məsələ, son vaxtlar Ermənistanın indiki hakimiyyətinin Azərbaycanla və Türkiyə ilə əlaqələrin qurulması, kommunikasiya xəttlərin açılması barədə fikirlərinə hakimiyəti əldən vermiş indiki radikal müxalifət qüvvələrinin əks həmlə cəhdləri də ola bilər. Paşinyan başa düşür, yaxud kimsə onu başa salıb ki, qonşularla, xüsusən də Türkiyə və Azərbaycanla münasibətlərin korlanması, əlaqələrin qırılması, düşmənçiliyin davam etdirilməsi Ermənistanın milli maraqlarına ziddir və ölkənin inkişafını ləngidən əsas amillərdən biri və birincisidir. İndiki hakimiyyət anlamağa və anlatmağa çalışır ki, "Qarabağ" klanı ilə dünya erməni lobbisinin birgə səyi nəticəsində 100 ildən artıq davam edən türk düşmənçiliyinin sadə ermənilərə heç bir faydası olmayıb, bundan sonra da olmayacaq və Azərbaycanla Türkiyənin uzatdıqları əli geri çevirməklə daha 100 il geriyə atılacaqlar.

Yaxın keçmişimizdə baş verən bir hadisəni xatırladaq. Ermənistanın III prezidenti, "Qarabağ" klanının rəhbərlərindən biri, Xocalı qətliamının ssenaristi və icraçısı Serj Sarkisyan 2017-ci ildə Qafan şəhərində yerli erməni gəncləri ilə görüşür. Çıxışında bildirir ki, bizim nəsil Qarabağı ələ keçirdi, sizin vəzifəniz isə Ağrı dağını almaqdır. Hər kəsə bəllidir ki, Ağrı dağı Türkiyə ərazisindədir və Ermənistan bu arzusunu reallaşdırması üçün qeyri-adi gücə, imkana malik olmalıdır. Amma, harada və hansı auditoriyada deyilməyindən asılı olmayaraq erməni prezidentin bu fikirləri çox təhlükəli idi. Hətta buna görə istənilən şəxsi məhşər ayağına çəkərdilər. Və çəkdilər də

Ermənistanda anti-türk ritorikasının artmasının növbəti səbəblərindən biri də kənar qüvvələrin, yəni Rusiyanın və digər ölkələrin buradakı 5-ci kolonunun planı da ola bilər. Bu barədə Ermənistan cəmiyyətində çox danışılır. Sizcə, müharibədən sonra keçirilən parlament seçkilərində məğlub komanda - Paşinyan necə oldu ki, qalib gəldi? Cavab çox sadədir, ermənilər Paşinyanın nə etdiyini bilirdilər. Baş nazirin hərəkətlərində Azərbaycanın maraqlarına oynamaq kimi yanlış təsəvvür ola bilər, amma bu, belə deyil. Paşinyan elə ermənilərin əlinə oynayırdı, marağına xidmət edirdi.





O bilirdi ki, Dağlıq Qarabağın müstəqilliyini 28 ildə 3 prezident tanıda bilməyibsə, onun hakimiyyəti dövründə də bu istiqamətdə atacağı addımlar da dişsiz olacaq. Çünki Qarabağ bütün beynəlxalq sənədlərdə Azərbaycan ayrılmaz hissəsi, suveren ərazisidir. Adını nə qoyursan qoy "Dağlıq Qarabağ"ı müstəqil ölkə kimi kimsə tanımağa cəhd edə bilməz. Azərbaycan Gürcüstan deyil. Ona görə də Paşinyan doğru olanı etdi, seçicilərinə həqiqəti dedi. Ən böyük bicliyin düzlük olduğunu Paşinyan da bilir. Paşinyan ağrılı olsa da həqiqətin üstünə getdi, seçicilərə keçmiş hakimiyyətlərin onları aldatdığını, Qarabağın Ermənistanın boynundan asılan ağır daş olduğunu dedi və seçkiləri qazandı. Bəli, Qarabağ Ermənistan üçün kal armud idi, nə uda, nə də ata bilirdi.

Diqqət edin, Ermənistanda və dünyada yaşayan ermənilər arasında Türkiyə ilə istənilən əlaqənin yaradılmasını milli satqınçılıq kimi qələmə verənlər az deyil. Buna baxmayaraq dünyada özlərinin bir nömrəli düşmənləri elan etdikləri Türkiyəyə turist kimi səfər edən, iş və yaşamaq üçün gedən Ermənistan vətəndaşlarının sayı on minlərlədir. Bəs, adam da düşmən bildiyi kəsin qapısına gedər? Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu barədə çox maraqlı fikirləri var: "Hazırda Türkiyədə 100 minə yaxın erməni yaşayır, onlardan 40 mini Türkiyə vətəndaşıdır. Türkiyə iqtisadi böhrana görə öz ölkələrindən qaçmağa məcbur olan erməniləri qovmur. Buna baxmayaraq, Qərb ölkələrində, o cümlədən Avropada 1915-ci il hadisələri ilə bağlı antitürk təbliğatı aparılır. Əgər biz onları qətlə yetirmişiksə, onların düşməniyiksə, əcəba 60 min erməni vətəndaş niyə Türkiyəni seçir". Maraqlı cavabdır, həm ermənilər, həm də onları yanlış istiqamətə yönəldənlər üçün.






Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin məlumatına əsasən, 2018-ci ildə Ermənistandan Türkiyəyə 51,8 min turist gəlib. Bu, 2017-ci ilin göstəricisi ilə müqayisədə 7,37 faiz çoxdur. Ötən ilin isə təkcə dekabr ayında Türkiyəyə 3,9 min Ermənistan vətəndaşı səfər edib. Türkiyəyə gələn Ermənistan vətəndaşlarının sayı hər ay ən azı 3 faiz artır. Türkiyə KİV-ləri yazır ki, hər ay minimum 200 nəfər Ermənistan vətəndaşı Türkiyədə qalır və qeyri-leqal olaraq işə düzəlir. Bunu erməni "xalq diplomatiyası", daha dəqiq desək, Türkiyədə kök salmaq yolu adlandırmaq olar. Türkiyənin Ticarət-Sənaye Palatasının (TOBB) məlumatına əsasən, son bir ildə bu ölkədə erməni kapitallı 9 şirkət qeydiyyata alınıb. Göstərilən dövrdə Türkiyədə qeydiyyata alınan şirkətlərin ümumi kapitalı 1,1 milyon lirə (təqribən 213,6 min ABŞ dolları) təşkil edib. Ötən il erməni kapitallı şirkətlər əsasən (8 şirkət) İstanbulda qeydiyyatdan keçib.

Ermənistan kiçik ölkədir, özündə azacıq güc hiss edən dünyanın istənilən dövləti onlardan öz məqsədləri üçün istifadə etməkdə çətinlik çəkməz. Ermənilərin özləri də oyuncaq olmağa adət etmiş və bu sahədə əhlləşmiş ikiayaqlı məxluqdurlar. Belə vacib və ermənilərin xilasına yönəlmiş Ermənistan-Türkiyə və Ermənistan-Azərbaycan yaxınlaşmasına xidmət edən görüş ərəfəsində anti-türk ritorikasının körüklənməsi əslində ermənilərin özünə ziyandır. Azərbaycana lazım olan dəhliz artıq inşa edilir - Zəngəzur dəhlizi. Gec ya tez bu dəhlizlə Naxçıvana, oradan isə Türkiyə və Avropaya yüklərimiz daşınacaq, insanlar şəxsi avtomaşınları ilə həmin istiqamətdə özləri səyahət edəcəklər. əks təqdirdə digər dəhlizlər də ermənilər üçün bağlana bilər.

Ermənistanda Azərbaycana və Türkiyəyə qarşı artan anti-təbliğatın arxasında başqa bir qüvvənin olması danılmazdır. Bu, daim türk düşmənçiliyini ermənilərə unutdurmayan daşnaksütyun partiyasıdır. Bir həftə əvvəl irəvanda bu partiyanın 131 illiyi qeyd edildi. Dünya daşnaklarının Ermənistandakı bir nömrəli nümayəndəsi, Ermənistan parlamentinin vitse-spikeri çıxışının əksər hissəsini türk düşmənçiliyinə həsr etdi. Və ermənilərin xoşbəxtlik düsturunun da məhz türklərə olan münasibət əsasında formalaşdığına diqqət çəkib. Sadə bir misal və bununla da pula, mala, dövlətə həris ermənilərin mahiyyətini kəşf etmiş olarsınız. Tədbirdə Ermənistanın Kanadadakı keçmiş səfiri Ara Papyan müstəqil ekspert kimi "Erməni soyqırımı zamanı erməni xalqının maddi itkiləri" mövzusunda məruzə ilə çıxış edib. Bütün "itkilər" nəzərə alınmaqla, Türkiyədən tələb olunmalı kompensasiyanın məbləği axır ki, "hesablanır" - 14.514.230.940 ABŞ dolları. Guya kimsə "soyqırımı"nı tanımağa hazırlaşır və yalnız qalır kompensasiyanın məbləğini müəyyən etmək. "Daşnaksütyun" partiyasının siyasi məsələlər üzrə mərkəzi ofisinin direktoru Kiro Manoyan isə o qədər vəcdə gəlib ki, indiki Ermənistan-Türkiyə sərhədinə yenidən baxılmasının zəruriliyini iddia edib. Sərhədin isə kimin xeyrinə dəyişdirilməsini də başa düşmək çətin deyil. Təbii ki, bu cür dinləmələr erməni deputatların Ermənistan-Türkiyə münasibətlərinin keçmişi, bu günü və gələcəyi barədə təsəvvürlərinin dərinləşməsinə kömək etməyib, çünki çıxışlarda konkret təkliflər və təfsilatlar yox idi. Baxmayaraq ki, ikigünlük müzakirələr məhz bunun üçün təşkil olunmuşdu.

İstefada olan türk diplomatı, Ermənistan-Türkiyə barışığı komissiyasının üzvü Özdem Sanberk hesab edir ki, Ermənistan-Türkiyə münasibətlərinin nizama salınması yolunda bir neçə maneə var, "onların hamısı əhəmiyyətli olsa da, heç biri həllolunmaz deyildir". Əvvəla, Ermənistan-Azərbaycan münaqişəsi, bu məsələdə qardaş Türkiyə tamamilə Azərbaycanın tərəfindədir və münaqişənin həllinə yönəldilmiş bütün səyləri alqışlayır. İkincisi, ərazi iddiaları, tarixi ekskurslar və köhnə düşüncə ilə əlaqədar bir sıra məsələlər var. Üçüncüsü, psixoloji ovqat problemidir. Özdem Sanberkin fikrincə, Ermənistan-Türkiyə münasibətlərində psixoloji düşmənçilik 1975-ci ildə Türkiyəyə qarşı başlanmış kampaniya nəticəsində yaranan yeni təzahürdür. O deyib: "Mənim gənclik illərimdə ermənilər türklərin bütün tədbirlərində iştirak edirdilər. Türk diplomatlarının və vəzifəli şəxslərin qətlə yetirilməsi, bizə qarşı genişmiqyaslı təbliğat bütün



bunlara, hər halda, kütləvi səviyyədə son qoydu".

Türk diplomatının fikrincə, diplomatik münasibətlər, heç olmazsa, ən mühüm məsələlərə aydın şəkildə anlaşıqlı və konsensuslu münasibətə əsaslanmalıdır. Lakin Türkiyə daim siyasi hücumlara məruz qalır və nəticədə türkləri müdafiə etməyə cəhd göstərən hər kəsin ağzından vurulur. 2005-ci ildə Türkiyənin Baş naziri iki ölkə arasında mövcud olan fikir ayrılığını birdəfəlik aradan qaldırmaq üçün tarixçi alimlərdən ibarət birgə komissiya yaratmaq təklifi ilə R.Koçaryana müraciət etmişdi. Ermənistan bu təklifə hay vermədi. Nə üçün? Cavabı tarixi faktlarda, o cümlədən erməni mənbələrində axtarmaq lazımdır.

Amerika yazıçısı Samuel Viimsin "Ermənistan: terrorçu "xristian" dövlətinin sirləri" kitabı çapdan çıxıb. Uzun illər aparılan tədqiqatların nəticəsi olan və yalnız sənədlərə əsaslanan bu kitab 400 səhifədən ibarətdir. Müəllif yazır ki, mən erməni mənşəli amerikalıların 150 yaşlı "qədim" vətənlərini mükafatlandırmaq üçün türklərdən, habelə Amerika xristianlarından böyük məbləğdə pul vəsaiti qoparmaq məqsədi ilə qətllər və soyqırımı ilə bağlı uydurma və yalanlar yaydığını sübut edən faktlar aşkar etmişəm. O, amerikalılardan soruşur: "Siz kimə daha çox inanırsınız - ermənilərin Osmanlı imperiyasını sağ-salamat tərk etdiklərini gözləri ilə görən şahidlərə, yoxsa 1,5 milyon həmtayfasının Osmanlı hökuməti tərəfindən qətlə yetirildiyini dəlil-sübutsuz iddia edən ermənilərə?".

S.Viims yazır ki, 1918-ci ildə kiçik bir ərazidə erməni dövlətinin yarandığı vaxtdan o, qonşuları Gürcüstana, Osmanlı imperiyasına və Azərbaycana qarşı torpaq iddiaları irəli sürməyə başlayıb. Qarabağa gəldikdə isə, Amerika alimi yazır: "1800-cü ildə bütün Qafqaz regionunda çox az sayda erməni tapmaq olardı. Rusiya mənbələrinə görə, Qafqazın Rusiyaya birləşdirildiyi dövrdə Qarabağda 90 min nəfər yaşayırdı. Burada o dövr üçün bir böyük şəhər və 600 kənd var idi. Onların 150-də ermənilər yaşayırdı. Ancaq dağlılar zorla köçürüldükdən sonra ermənilər burada üstünlük təşkil etdilər. 1907-1912-ci illərdə Rusiya yarım milyondan çox ermənini İrandan və Osmanlı imperiyasından əsasən müsəlman azərbaycanlıların yaşadığı Qars, İrəvan və Yelizavetpola (Gəncə) köçməsinə kömək etdi. Başqa sözlə, geosiyasi mənafelər naminə Qafqazda demoqrafik dəyişikliklər edildi. XX əsrin əvvəllərində Qarabağdan çıxan bircə yol var idi, o da Bakıya gedirdi. Ermənistana isə bir dənə də yol aparmırdı. Təkcə bu fakt çox şeydən xəbər verir. Bəlkə elə buna görə hətta bolşeviklər də etiraf etmişdilər ki, Qarabağ həmişə Azərbaycan torpağı olmuşdur".

Böyük Britaniyanın 1916-1922-ci illərdə Baş naziri olmuş Devid Lloyd Corcun yazdığına görə, 1915-ci ildə Osmanlı imperiyasında baş verən faciəli hadisələrin təqsirkarları Türkiyədə "beşinci dəstəni" maliyyələşdirən Rusiya, habelə rusları Osmanlı torpaqlarını tərk etməyə məcbur edən Britaniya imperiyasıdır. Bu baxımdan, həmin dövrdə sayca qat-qat çox türk, azərbaycanlı, yəhudi və Qafqazın digər xalqlarının nümayəndələrini qətlə yetirmiş erməni quldur dəstələrinin əməllərini də nəzərdən qaçırmaq olmaz.

Sonda S.Viimsin bir tövsiyyəsini qeyd etməyi də unutmayaq. O, "Ermənistan: terrorçu "xristian" dövlətin sirləri" sənədli tədqiqat əsərinin üz qabığında oxuculara belə bir tövsiyə verir: "Bu kitabı hər bir xristian və Amerikada hər bir vergiödəyicisi oxumalıdır ki, ermənilərin kimliyindən xəbər tutsunlar".

Bu gün Türkiyə tərəfinin Ermənistana təklifi masadadır. Türkiyə heç bir şərt qoymadan hava əlaqələrinin açıldığını elan etdi və Türk Hava Yolları İrəvana uçuşlara başlayıb. Erməniləri isə Zvartnots hava limanında piket keçirirlər ki, kimsə İstanbula uçmasın, əlaqələr yaranmasın. Budur erməni xisləti. Türkiyənin bu addımı, Azərbaycanın isə kommunikasiya xəttlərini açmaq təklifi Ermənistan ictimaiyyətində nokaut effekti yaradıb. Ermənilərin "blokada" deyə bağırdığı, hayküy saldığı yalan təbliğatı artıq fiaskoya uğrayıb, Türkiyə və Azərbaycan kommunikasiya xətlərinin açılmasına çalışır, Ermənistanı da konstruktiv olmağa çağırırlar. Rəsmi İrəvanın isə gücünün yetdiyi ən azından vaxt uzatmaqdır. Amma niyə? Vaxt var idi, Azərbaycan torpaqlarını işğal etmişdi, toplarının, raketlərinin üzünü şərqə tərəf tuşlayıb bizə olub keçənlərlə barışıb "sülhpərvər" olmağı təklif edirdi. Dünyaya da Azərbaycanın sülh istəmədiyini haqda yalan məlumatlar tirajlayırdı. Türkiyəni də sərhədləri bağladığına görə ittiham edirdi. Özünü də qanmazlığa, saymazlığa, karlığa, korluğa qoymuşdu. Səsimizi, etirazımızı, arqumentlərimizi eşitmək belə istəmirdi. İndi zaman da, yerlər də, mövqelər də dəyişib. Azərbaycan Qarabağda suveren hüquqlarını bərpa edib, ərazilərini işğalçı erməni ordusundan təmizləyib. Erməni isə qanmır ki qanmır. Deyirik, ay erməni, bir qələt eləmişdin, çıx dedik, çıxmadın. Zorla, zopa ilə, daşla, kəsəklə səni qamarladığın, yağmaladığın yurd yerlərimizdən iti qovan kimi qovduq. Düşündük ki, ağıllanıbsan, imana-dinə gəlibsən. Amma görünən budur ki, hələ də "it gəldi çarığı apardı" bəhanəsi ilə vurnuxursan. Bu xəmir hələ çox su aparacaq. Bu millətçilik nədirsə, ermənilərin axırına çıxacaq...

***V.VƏLİYEV***

# Qərənfil: Mənə bəraət verin!

Bir gündə qərənfillə bağlı iki bir-birinə bənzər hadisə ilə qarşılaşdım. Küçədə məndən öndə gedən iki nəfərdən biri satılan qərənfillərə baxaraq " nə gözəl qərənfillərdir", - deyəndə o biri "o, ölü gülüdür də", - deyə cavab verdi. Bu an onsuz da soyuq küləyin təsirilə ləçəkləri pərişan olmuş qərənfillərin bir andaca rəngi soldu, bu sözlərin təsirilə özlərini biryolluq küləyin ağuşuna verib "götür, götür məni hara istəyirsən apar, çırp daşlara, divarlara, məhv elə, var olmaq istəmirəm",- deyirdillər. Bir az sonra isə metroda qarşılaşdığım başqa bir hadisə: bir qadının dizinin üstündə qəzetə bükülü bir dəstə qərənfil. Güllər elə bükülmüşdü ki, ləçəkləri əsla görünmürdü. Mən onları bağlamanın aşağısından ancaq



*Mətanət MƏMMƏDOVA*
*Əməkdar jurnalist*

görünən yarpaqlarından tanıdım. Bu dəfə qərənfilin yenidən hayqırtısı ilə qarşılaşdım. Qəzetin altından sanki onu ən çox duyan adam kimi mənə üz tutub gileylənməyə başladı:

- Mənə niyə ölü gülü deyirlər axı, günahım nədir? Məni niyə görünməyim deyə qəzetə bükürlər axı, bunamı layiqəm? Axı 1990-cı ildən əvvəl mən hər kəsin ən sevdiyi, əl-əl axtarılan bir çiçək idim. İlin bütün fəsillərində hər kəsin ehtiyacını ödəyən, sevgililərin bir-birinə bağışladığı, ad günlərində buketləşən, nişan-toy gülü idim. Yay-qış məni bititrməyə-yetirməyə çalışanlar var idi. Mənimlə şəxsi biznesini qurub başqalarından fərqli yaşayanlar var idi. Nə edim ki, alın yazım belə yazılıbmış... 90-cı ildə Azadlıq meydanında 70 illik rus imperiyasının buxovlarını darmadağın edib müstəqillik uğrunda mübarizəyə qalxan və üzərinə yeridilən rus ordusunun qəddarlığına uğrayan yüzlərlə şəhidin, torpağı al edən qanın üzərinə düzüldüm. 20 Yanvarda, qışın o çağında mən var oldum, küçələri, dalanları bəzədim, mən şəhid gülünə, azadlıq çiçəyinə çevrildim. Müstəqillik uğrunda canlarından keçənlərin ilk həmdəmi oldum. Ana-atalarından, yaxınlarından öncə mən aldım onları qoynuma. Nalə çəkdim, ağı dedim, göz yaşı axıtdım. Hansı ki, qoynumda həyatla vidalaşanların bir zamanlar mən qoyunlarında, əllərində ən xoş günlərə yollanırdım. Bir gecədə bəzədim Bakının küçələrini. O gecə ad günü olanların ad gününü qeyd etdim, sevgilisiylə görüşə gedənlərin görüş yeri, hədiyyəsi oldum. Toyuna hazırlaşanların toyunu etdim. Ən əsası isə müstəqillik, azadlıq təşnəsi kimi küçələrə səpildim. Elə o gündən mən şəhid gülü oldum, ölü gülü deməyin, mən şəhidlərin-ölməzlərin, əbədi yaşayanların gülüyəm. Mən müstəqillik gülüyəm, azadlığa gedən yolda mən də varam. Ölü gülü deyiləm, əbədi müstəqilliyə gedən yolun şahidi, bələdçisiyəm.

Niyə məni qəzetə bükürlər bəs? Utanırmı inanlar məndən? Axı mən qürur gülüyəm, niyə utansınlar ki? Yaxşı məni istəmirlər, barı qəzetə hörmət etsinlər. Qəzet nə çətinliklə yaranıb, ərsəyə gəlib,bilirlərmi? Bugünkü azadlığımız, müstəqilliyimiz üçün mətbuata, qəzetlərə də borclu deyilikmi? Həsən bəy Zərdabi qanı bahasına qəzet yaradanda, rus çarizmi tərəfindən təhdid ediləndə, insanların beyninə maarifçilik toxumunu səpib illərlə cücərməsini gözləyəndə, onlara olmazın çətinlikləri ilə qəzet oxudanda, qəzetində əkinçiliyə çağırış altında azadlığa çağırış edəndə nə bilərdi ki, ömrünü verdiyi qəzet neçə əsr sonra bəzi insanların lüzumsuz istifadəsinə çevriləcək. Budurmu siz insanların bir-birinizə qoyduğunuz hörmət? Budurmu böyük bir tarixə, ənənəyə malik mətbuata verdiyiniz dəyər? Əlinizə gələni, həmçinin də məni bükməyin qəzetlərə. oxuyun qəzetləri. Qoymayın internet dünyası qəzetlə təmasınızı, bu tarixi nümunəni də tamamilə əlinizdən alsın.

Mənə bəraət verin, ey insanlar! Tökün daşı ətəyinizdən. Ölü gülü deməyin mənə, qəzetlərə bükməyin, başıaşağı tutmayın, heç kimdən gizlətməyin. Mən bunları haqq etmirəm. Qaytarın mənə sevginizi. Xarıbülbül də 30 ildi ki, başını aşağı dikmişdi. Torpağı əlindən alınmışdı, mənəviyyatı, heysiyyəti təhqir olumuşdu. Düz 30 il idi ki, nə yazısı yazıydı, nə də ki, yazı. Açmırdı, gizlətmişdi gözəlliyini. Qarabağın matəmini saxlayırdı. İşğal olunmuş torpaqların yasını tuturdu, sızlayırdı, ağlayırdı. İndi baxın onun büsatına. 44 günlük payızla yazı gəldi xarıbülbülün. Mənimlə başlanan azadlıq mübarizəsində şəhid olanların övladları 17-18 ildə bu ölkədə elə böyüdülər, elə tərbiyə olundular ki, ata-babalarının 90-cı illərdə uğrunda şəhid olduqları, o zamankı rəhbərlərin ermənilərə satdıqları torpaqları azad etməyə yollandılar. 20 Yanvarın, Xocalıl faciəsinin, ermənilərin əsrlərlə xalqımıza qarşı törətdikləri soyqırımların da, bir-birinin ardınca işğal olunan torpaqların, didərgin salınan, öldürülən, qapıları illərlə bağlı qalan qarabağlıların da, o zaman həmin torpaqlar uğrunda canını qurban edənlərin də qisasını aldılar. 44 gündə Qarabağ ölkəmizə layiqli rəhbərlik edən sərkərdənin müzəffər ordusunun rəşadəti ilə düşməndən geri alındı. Üç minədək şəhid verdik yenə. Lakin torpaqlarımıza doğma nəfəs dəydi, namusumuz, heysiyyətimiz təmizləndi. Dünya Azərbaycana heyran qaldı.

Xarıbülbülü şəhidlər qanları ilə suvardılar. Onu şəhid nəfəsi həyata qaytardı. Otuz ildə çiyninə düşən başı yuxarı qalxdı, ta yazı gözləmədi, elə payızdaca çiçək açdı. Otuz ilin əvvəlinin şahidi mən - qərənfil, sonunun şahidi isə xarıbülbül oldu. Əzizləndi xarıbülbül, yenidən adına nəğmələr qoşuldu, hər kəs sinəsində gəzdirir indi onu. Mənim kimi nə adı ölü gülüdür, nə də qəzetlərə bükülür. Rəsmləri hər yeri bəzəyir. Artıq başı dik, üzü ağ, könlü açıq, hamının sözü-söhbətidir. Onun üzündəki gülüşün səbəbi mənəm, bilirsinizmi? 30 il əvvələ bir nəzər salın. Mən igidimi oxşamasaydın, xarıbülbül 30 il sonra açardımı? Mən azadlıq mücahidlərini o gecə qoynuma almasaydım, onların davamçıları Qarabağa yollanardımı? 30 ilin əvvəlində mən, sonunda xarıbülbül varsa, mənə bəraət verin. Ölü gülü yox, şəhid gülü deyin, qəzetə bükməyin, qürürla əlinizdə gəzdirin məni. Qatın məni də güllərə, çiçəklərə, yaralı qəlbimə məlhəm olun. Başımı dik tutun, "ağla, qərənfil, ağla", -deməyin, "gülümsə qərənfil", - deyin. Mən də, siz də şəhidimizi unudan deyilik sonsuzadək, onlar üfüqlərdən daim gülümsəyirlər bizə. Siz də məni gülümsədin, mənə bəraət verin!

P.S. Qərənfil "danışdıqca" ürəyimin sızıltısı ilə onu dinləyir, söylədiklərinin tamamilə gercək olduğu anlamına gəlirdim. Həqiqətən, gəlin, qərənfilə bəraət verək. Onunla yenidən nişan, toy buketlərinə çevirək, birbirimizə bağışlayaq. Qoy yeni qurulan ailələrimiz şəhid gülü ilə qurulsun. Qoy hər dəfə bir-birimizə bağışladığımız qərənfillərlə hər dəfə müstəqil, azad həyatımızı bizə bəxş edənləri xatırlayaq. Bu xatırlamaları övladlarımıza anladaq. Anladaq ki, qərənfil ölülərin deyil, əbədi yaşayanların güldür...

# "Ermənistan Zəngəzur dəhlizinin açılmasında maraqlı deyil"

"Ermənistan təxribatçı əməllərindən əl çəkmir. Bunun səbəbi çox sadədir. Çünki Ermənistan tarixinin ən böyük məğlubiyyətini yaşayıb. Böyük sarsıntı keçirib, dövlətin nüfuzu aşağı düşüb, hakimiyyət xalqın dəstəyini itirib. Bu vəziyyətdə təbii ki, imzalanan beynəlxalq müqavilələr bu cür dövlətlərin həmişə ziyanına olur". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov deyib.



Onun sözlərinə görə, Ermənistan əslində vaxt qazanmağa çalışır: "Ümid edir ki, bəlkə xarici güclərin hesabına onun beynəlxalq mövqeyi güclənə, onların yardımı ilə əlverişli müqavilələr imzalaya bilər. Bu gün sərhədlərin delimitasiyası ilə bağlı proses davam edir. Lakin Ermənistan bu prosesi müxtəlif bəhanələrlə ləngidir. Artıq iki ildir ki, Ermənistan bu prosesi ləngidir. Əslində Ermənistan tərəfinin məqsədi aydındır. Ermənistan tərəfi daha əlverişli şərtlərlə sərhədlərin delimitasiyasına nail olmaq istəyir. Bu gün bu qeyri-mümkündür".

Abutalıb Səmədov sözlərinə davam edərək həmçinin qeyd edib ki, Azərbaycan dəfələrlə sülh sazişinin imzalanmasını tələb edir: "Bu məsələyə Ermənistan etiraz etmir. Ancaq şərt irəli sürür. Buna görə də, sülh sazişinin imzalanması ləngiyir. Bundan əlavə kommunikasiyaların açılması, Zəngəzur dəhlizinin açılması prosesini ləngitmək üçün Ermənistan əlindən gələni edir. Təbii ki, Azərbaycan tərəfi əlindən gələni edir, hərtərəfli təzyiqlər göstərir. Bundan əlavə həm Rusiya, həm də beynəlxalq birlik Ermənistana müəyyən təzyiqlər göstərməlidir ki, onlar bu cür təxribatlardan əl çəksinlər".

*Arzu Qurbanzadə*



# "Qarabağ yaşıl enerji zonası elan olunub"

"Son illər ərzində Azərbaycanda enerji infrastrukturu çox peşəkar səviyyədə qurulur. Bizdə rəqəmsal sistemə keçilib". Bu sözləri SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib. Onun sözlərinə görə, etiraf edək ki, Azərenerjinin gördüyü işlər təqdirəlayiqdir: "Cənab Prezidentin əsas məqsədi Qarabağın infrastrukturunu yaratmaqdır. Politoloq sözlərinə belə davam edib: "Qobu Enerji Qurşağı çox mühüm əhəmiyyətə malikdir. Abşeron yarımadasını təmin etmək və Azərbaycan enerji satışını həyata keçirmək üçün bu qurşaq mühüm əhəmiyyətə malikdir. Qarabağ yaşıl enerji zonası elan olunub".

Cənab Prezidentin 2004-cü ildə qəbul olunmuş Milli Təhlükəsizlik Konsepsiyasında əsas məsələdən biri də enerji təhlükəsizliyinin təminatı idi. Azərbaycan hal-hazırda nəinki enerjini təmin edir, hətta enerjini ixrac edən dövlətə çevrilib. Azərbaycan qonşu ölkələrə enerji satmaqla bərabər, iqtisadi inteqrasiya prosesində həyata keçirib. Bütün bunların fonunda Azərbaycan güclü və qüdrətli dövlətə çevrilir. Yaxın gələcəkdə Azərbaycan nəinki Cənubi Qafqazın, bölgənin əsas enerji təhlükəsizlik təminatında rolu olan bir dövlətə çevriləcək".

*Ayşən Vəli*



# Ərlə arvadın eyni iş yerində çalışması düzgündür?

ARAŞDIRMA

***Münasibətin ilk günləri sevdiyiniz insanla eyni iş yerində çalışmaq üstünlük sayıla bilər. Hər gün sizin üçün xüsusi olan insanı görmək hissi ilə işə getmək ilk başlarda çox motivasiya edir. Ancaq tanışlıq dövrünü keçib həyat yoldaşı olanda bu nöqtədə iş bir az dəyişir. Mütəxəssislər qeyd edirlər ki, evli cütlüklər üçün eyni iş yerində işləmək bir müddət sonra yorucu ola bilər. Bir müddət sonra iş və şəxsi həyatda birlikdə vaxt keçirən həyat yoldaşları arasında heç bir həsrət hissi yaşanmır ki, bu da evliliyi qısa zamanda monoton edir. İşəgötürənlər, ümumiyyətlə, həyat yoldaşlarının ən azı eyni şöbədə işləməsinə üstünlük vermirlər. Bir çox menecer bunu peşəkar karyeralarına təhlükə kimi görür.***

## Bəs eyni iş yerində ər-arvad arasında hansı problemlər yaranır?

Əvvələ, cütlüklər, təəssüf ki, iş və şəxsi həyat arasındakı sərhədi dəqiq müəyyən



edə bilmirlər. İki həyat arasında balans yaratmaq çox vacibdir. Evdə yaşanan gərginliyi ertəsi gün iş həyatınıza daşımamağınız kimi, eyni şəkildə orada işdəki problemləri qoyub evə girməyi bacaran kimi ər-arvad olduğunuzu xatırlamaq lazımdır.

Başqa bir problem qısqanclıqdır. İş mühitində digər dostlarla ünsiyyət başqa həyat yoldaşını narahat edə bilər.

Araşdırmalara baxdığımızda dezavantaj olaraq ortaya çıxan bir başqa problem də digər işləyən insanların evli cütlüklərə baxışıdır. Digər işçilər həyat yoldaşlarını eyni şəxs kimi görə bilərlər. Yəni arvad nə desə, ər də eyni fikri dəstəkləyəcək məntiqi ilə həyat yoldaşlarının fərqli fikirləri ola biləcəyi düşünülmür.

Digər tərəfdən, cütlüklərin təbii olaraq tətil və bayram günlərini eyni dövrdə gətirmələri də işçilər üçün problem yarada bilər.



Bir problem odur ki, zaman-zaman cütlüklərdən biri rəhbər vəzifədədir. Bu mövqedə olan həyat yoldaşı, üstünlük verilmə düşüncəsi yaratmamaq üçün digər işçilərə nisbətən həyat yoldaşına qarşı daha sərt davrana bilər. Bu münasibət həm də tabeliyində olan həyat yoldaşını incidə bilər.

Həyat yoldaşları arasında maaş fərqi də bəzən problem yaradır. Xüsusilə, daha yüksək maaş alan tərəf qadındırsa, kişi bunu çox vaxt qürur mövzusuna çevirə bilər. Bu və buna bənzər problemlərlə cütlüklər eyni işi görmənin mənfi cəhətləri ilə qarşılaşırlar.

Bu məhdudiyyətlər kiçik düzəlişlərlə təyin edilə bilər. Məsələn, həyat yoldaşları nahar və fasilələri birlikdə keçirmək məcburiyyətində qalmamalıdırlar. Əksinə, bu fasilələri ayrı-ayrılıqda dostlarla keçirmək cütlüklərə nəfəs almaq imkanı verir.

Təbii ki, bu vəziyyətin müsbət tərəfləri də olacaq. Məsələn, birlikdə evə getmək vaxtınıza qənaət edə bilər. Eyni işi etdiyiniz üçün həyat yoldaşınızla eyni dili danışmaq



qaçınılmaz olacaq. Partnyorunuz həyəcanınızı və stressinizi daha yaxşı anlayacaq və ona uyğun hərəkət edəcək. İş yükünüzü vaxtaşırı bölüşmək və bir-birinizə keçid verməniz də mümkündür. Ən əsası bütün günü biri-birinizi görəcəksiniz.

Eyni və ya fərqli iş mühitində olmaq xoşbəxtliyi müəyyən etmir. Bilinməlidir ki, yetkin bir evlilik üçün həyat yoldaşları ilk növbədə ayrı şəxsiyyət olduqlarını qəbul etməlidirlər. Hər iki tərəf bunun şüurunda olsa, şərtlər mənfi olsa belə, bunu üstünlüyə çevirmək olar.

Günün 24 saatını birlikdə keçirən cütlüklərin bir-birindən sıxılacağı qorxusu ilə yanaşı, iş yerindəki rəqabət, qısqanclıq və maaş fərqindən doğan münaqişələr hər iki tərəfi çətin sınaq qarşısında qoyur. Psixoloqlar deyir ki, "eyni iş yerində işləmək sevgini öldürür".

SİA mövzu ilə bağlı araşdırma apararaq ekspert, sosioloq və psixoloqların fikirlərini öyrənib.

**Psixoloq Fidan Namazova:** "Eyni peşəyə sahib olan cütlüklərin üstünlüyü odur ki, onlar işlə bağlı biri-birindən məsləhət ala bilərlər. Mənfi tərəfi isə rəqabətin olmasıdır. Bəzən bu rəqabət tam da sağlam olmur. Maaş və vəzifə kişiləri daha çox narahat edir.



Eyni iş yerində çalışmağın da həm müsbət, həm də mənfi tərəfləri var. Müsbət odur ki, eyni yerə gedib-gəlmək rahatlıqdır. Digər tərəfdən də anlaşılmamazlıq, qısqanclıq və söz-söhbətlərə səbəb olur. Mənfisi odur ki, həm işdə, həm də evdə bir-birini görmək münasibət üçün o qədər də faydalı deyil.

İş yerində insanlar bir-birini müzakirə edir və ya biri-birinə baxır. Bu da cütlüklər arasında qısqanclıq kimi problemlərə səbəb ola bilər".

**Yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov:** "Əslində, insanların beynində belə bir fikir qalır ki, yaxın qohumlar bir yerdə işləyə bilməz.

*Ardı Səh. 12*

Əvvəli Səh. 11

Amma dünyanın heç bir ölkəsində belə



bir qadağa yoxdur. Bazar iqtisadiyyatıdır, kapitalizmdir. Mən əgər öz həyat yoldaşımdan yaxşı bir mütəxəssis görürəmsə niyə onunla işləməməliyəm?!

Yadıma gəlir mən universitetlərin birində dərs deyən zaman həmişə mühazirələrimə də, seminarıma da bir-birini sevən cütlüyün tələbələrinə icazə verirdim ki, gəlsinlər, otursunlar. Onların o universitet auditoriyasında həm mühazirə həm seminarda iştirak etmələri, əslində, zəif orta nəticəli bu tələbələrin yüksək qiymət almasına səbəb olurdu. "Facebook", "Instagram"da Azərbaycanda Lənkərandan olan iki cütlük işləyir. Biri ingilis dili müəlliməsi idi, biri də onun həyat yoldaşıdır. Vaxtilə onlar buradan Amerikaya hansısa tələbə və yaxud mütəxəssis proqramı ilə getmişdilər. Sonra orada qaldılar, yaşamağa başladılar və indi onlar "Facebook" və "Instagram"ın ən böyük şöbələrinə rəhbərlik edirlər. İndi bunlar ər-arvaddır deyə "Facebook" kimi dünyanı idarə edən bir şirkət bunları işlətməməlidir?! Bu, çox absurd bir fikirdir.

Cütlüklərin eyni iş yerində işləməsi həm də bizdə "qadın işləməməlidir" psixologiyasını dağıtmaq deməkdir. Bilirsiniz ki, qadınlarla bağlı biz iş yerlərində seksual qısqanma, yoldan çıxartma, kişilərin sataşması, iş zorakılığı ilə bağlı müəyyən faktlarla rastlaşırıq. Üstəlik, işə gedən qadınların və yaxud maşın sürən qadınların digər kişilər tərəfindən söz atması, sataşması prosesi də var və eyni zamanda, qadınlar digər problemlərlə də rastlaşırlar. Bu da ailədaxili münaqişələrə, problemlərə, cütlüklərin nigahının pozulmasına aparıb çıxarda bilir. Bu olmasın deyə cütlüklərin eyni işdə işləməsi həm sosial-psixoloji, həm də iqtisadi xeyri var.

Birincisi bilirsiniz ki, indi pandemiya hələ qutarmayıb və ictimai nəqliyyatda ayrı-ayrı yerə işə gedən şəxslərin xəstəliyə tutulması və o xəstəliyi evə daşıması şansı çoxdur. Amma bir yerdə bir maşınla işə gedən cütlük ən azı görürsünüzmü həm ictimai nəqliyyatda yaxud iki maşından istifadə etmir, bir maşından istifadə edir, həm də müəyyən təhlükələrdən sığortalanmış olur. Bu baxımdan da, eyni işdə çalışan amma bir-biri ilə yarışan, bir-birinin rəqabətinə görə müəyyən yeniliklər edən cütlük əlbəttə ki, dəstəklənməlidir.

O başqa məsələ ki, qohumluq haqqında qanun var. O qanunda dövlətin müəyyən vəzifələrində eyni qohum insanların işləməsi yasaq olunub. Bu, bəlkə də başa düşüləndir. Amma özəl, fərdi işlərdə və yaxud kənd təsərrüfatında, sənayedə, ticarət xidmət sahəsində cütlüklərin işləməsində nə problem ola bilər ki?!

Tutalım ailə otelləri və restoranları açılır. Burada indi ər-arvad işləməməlidir və yaxud buna kimsə pis baxmalıdır? Bu psixologiya uzun müddət həm Azərbaycanın daxilində, həm də xaricdə yaşayan azərbaycanlılara problemlər yaratdı. Mənim yadıma gəlir ki, Rusiyada yaşayan azərbaycanlıların böyük əksəriyyəti yoldaşlarını, qızlarını, gəlinlərini, analarını işə buraxmırdılar, işləməyə qoymurdular. Amma iqtisadi vəziyyət dəyişdi. Kişilər özləri evə artıq kifayət qədər pul gətirə bilmədiyinə görə məcbur oldular qadınlar işə çıxmağa başladılar. Bir çoxları öz ərlərinin yanında işləyirdilər, bir çoxları ayrı yerdə maqazinlərdə, xidmət sahələrində işləyirdilər. İndi monitorinq keçirilsə, ruslardan sorğu keçirsəniz görəcəksiniz ki, rus iş adamları azərbaycanlı xanımlara böyük məmnuniyyətlə iş verirlər. Çünki onlar içmirlər, onlar məişət pozğunluğu ilə məşğul olmurlar, onlar "atmır"lar, oğurluq etmirlər, səliqəlidirlər. Onlara tapşırılan o vəzifələri layiqincə yerinə yetirirlər. Ona görə də baxın Rusiyada, Türkiyədə, Amerika Birləşmiş Ştatlarında bir çox ölkələrdə artıq azərbaycanlı xanımların da bəylər kimi get-gedə karyera zirvəsinə qalxmasını biz müşahidə edirik. Məsələn, şəxsən mənim özümün də Rusiyada qohumlarım var. Nəinki qadınlar, gəlinlər hətta qız uşaqları da tələbə, məktəbli olsalar da artıq yayda gedirlər analarının yanında və yaxud hansısa bir maqazində işə düzəlirlər və özlərinə müəyyən gələcəkləri üçün kapital yığmış olurlar. Əvvəllər belə idi ki, bizimkilər çəkinirdilər ki, bu olmaz azərbaycanlılar hara, ruslara işləmək, xidmət etmək hara?! Amma indi o psixologiya dağılıb. O cümlədən Azərbaycanın özündə də artıq qadınların hər yerdə işləməsinə şərait yaradılıb. Qısqanmalar, bir çox təzyiqlər aradan qaldırılıb. Gender bərabərliyi əldə edilib.

Xanımlarımızın həm öz bəylərinin yanında birlikdə işləməyi, həm də ümumiyyətlə işləməsinin heç bir problem yoxdur. Amma cütlüklər də bəzi psixoloji nüanslara fikir verməlidirlər. Evdə olan problemləri işə daşımaq, işdə olan problemləri evə daşımaq olmaz. Qəti surətdə olmaz. Çünki bu ailənin dağılmasına gətirib çıxara bilər. İkincisi cütlüklərin hər ikisi eyni səviyyədə, orta məvacibli işdə işləyirlərsə nəzərə almalıdırlar ki, bunların uşaqlarına da kimsə baxmalıdır. Əgər dayələri evlərinə dəvət edirlərsə mütləq orada yeni texnologiyalardan istifadə edib videokameralar, mobil və smartfonlar vasitəsilə öz uşaqlarına nəzarət etməlidirlər.

Son vaxtlar uşaqları döyən, onu videoya çəkən dayələri və yaxud gizli videoların çəkdiyi dəyərlər və baxıcılarla bağlı problemləri yadınıza salmaq istəyirəm. Çünki hər iki cütlük işləyən zaman yəni, bilirsiniz ki, bir çoxlarımızın baba-nənələri rayondadır və yaxud da onların da baxmağa imkanı yoxdur. Ona görə də uşaqların tərbiyəsində problemlər yaşanır və bu da gələcək nəslin, ümumiyyətlə, mənəvi əxlaqi və intellektual peşəkar inkişafına çox mənfi təsir edə bilər. Ona görə də buna da xüsusi önəm vermək lazımdır".

**Hüquqşünas Fariz Əkbərov:** "Əslində, qanunvericilik nöqteyi-nəzərindən ər və arvadın eyni işdə çalışmasında problem yox-



dur. Söhbət işin mənəvi tərəflərindən, sıxıntılarından gedir.

Onu da qeyd edim ki, ölkəmizdə həm sovet dövründə, həm də indi dövlət işində eyni idarədə çalışan cütlüklər çox olub. Məsələn, eyni məktəbdə çalışan ər-arvad müəllimlər kifayət qədərdir. Amma özəl sektorda vəziyyət başqadır. Özəl sektorda maaşlar nisbətən yüksəkdir. Buna görə işçidən daha çox iş tələb olunur. Bu isə istər-istəməz gərginlik, stress yaradır. Nəticədə iş yerində əsəb gərginliyi olur. Bu cür hallarda rəhbərlik işçiyə səhvini bildirdiyi zaman əgər xanımı (və ya tərsinə) bunu görürsə, istər-istəməz sıxıntı keçirir və s. Tam tərsinə, bəzən şirkət rəhbərliyi də bir-birinin yanında sıxıntı çəkməsinlər deyə işçidən istədiyini tələb edə bilmir, yeri gələndə irad bildirmək olmur .Psixoloqların qənaətinə görə, eyni iş yerində işləmək və haradasa, günün 24 saatını bir yerdə olmaq bəzi ailələrdə heç bir problemə səbəb olmasa da, bəzilərində ciddi münaqişələrə gətirib çıxarır. Onların qənaətinə görə də, əslində, ən yaxşısı həyat yoldaşlarının eyni iş yerində işləməmələridir. Çünki belə olduqda ailə rolu ilə iş rolunu ayırmaq çətin olur. Bu isə çox vaxt tərəflər arasında anlaşılmazlıqlara gətirib çıxarır. Belə ki, xanımlar şəraitdən asılı olmayaraq, həyat yoldaşlarından qayğı gözləyirlər. Halbuki iş həyatı evlə müqayisədə daha mücərrəddir. İş həyatında qadının bəzən həyat yoldaşı ilə "üz-üzə gəlməsi" də istisna deyil. Təbii ki, belə hallar tərəflərdə incikliklərə səbəb olur və bu, bəzən evdəki münasibətlərə də öz təsirini göstərir".

SİA şəhər sakinlərinin də fikirlərini öyrənib.

Şəhər sakini Bahar Qasımova: "Yoldaşımla mən bir il əvvəl bir restoranın idarəçiliyini götürdük. Biz həm bu işi sevirik, həm də uğur qazanmaq üçün çox çalışırıq. Amma artıq bir-birimizə dözə bilmirik. İşə yanaşmamızın və iş etikası anlayışımızın nə qədər fərqli olduğunu başa düşdük. Səhəri gün iş yerimizə gedəndə yenə dalaşmağa başlayırıq. Artıq müzakirəmiz üçün ciddi səbəblərə ehtiyac yoxdur. Axırda oturub söhbət etdik və qərara gəldik ki, birimiz başqa işdə işləyək".

**Şəhər sakini Emilya İsmayılova:** "Dörd il işlədiyim memarlıq idarəsində işə başladığım ilk gün ona aşiq oldum. Hisslərimi etiraf etmək və onların qarşılıqlılığını tapmaq üçün təxminən bir il çəkdi. Sonrakılar yuxu kimi idi. Sanki işə pul qazanmaq üçün yox, onu görmək üçün gedirdim. İşimi, həmkarlarımı və xüsusən də, onu sevirdim. İki il görüşdük. Bu prosesdə qısqanclıqla bağlı kiçik problemlər yaşadıq. Bir-birimizə şıltaqlıq etdik, bir-birimizin qəlbini qırdıq. Bu prosesi uğurla keçdikdən və qarşılıqlı etimad yarandıqdan sonra hər şey yoluna düşdü. 6 ay əvvəl evləndik. Evimizdə onsuz olmağı düşünmədiyim kimi, onsuz bir iş yeri də təsəvvür edə bilmirəm".

**Şəhər sakini Aqil Qarazadə:** "İki ildir evliyik və ikimiz də evdə işləyirik. Valideynlərim illərlə birlikdə işlədiyindən və uşaqlığım evdə iş üstündə onların mübahisələrini dinləməklə keçdiyi üçün əvvəlcə narahat oldum. İndiyə qədər qorxduğum şey başıma gəlməyib. Evliliyimiz daha yenidir. Ümid edirəm ki, biz bu hörməti həmişə qoruyub saxlayacağıq".

***Ayşən Vəli***

# YAP Masallı rayon təşkilatının ərazi partiya təşkilatlarında hesabat-seçki yığıncaqları keçirib

## Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycanın siyasi tarixinin ən parlaq səhifələrindəndir

**Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı Heydər Əliyev Mərkəzi, Bədələn, Qızılavar və Tarix Diyarşünaslıq Muzeyi ərazi partiya təşkilatlarında hesabat-seçki yığıncaqları keçirib. Əvvəlcə Vətən uğrunda canından keçən şəhidlərin və ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Yığıncaqlarda iştirak edən Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev Yeni Azərbaycan Partiyasının çətin şəraitdə yaradıldığını diqqətə çatdırıb. Yeni Azərbaycan Partiyasının yaradılmasının Azərbaycanın siyasi tarixinin ən parlaq səhifələrindən biri olduğunu deyən S. Əliyev diqqəti ölkəmizin əldə etdiyi uğurlara, qazanılan nailiyyətlərə və qələbələrə çəkərək bildirib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir.





Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfərdən bəhs edən Seyfəddin Əliyev şanlı tarix yazan vətən oğullarının qəhrəmanlığından, Silahlı Qüvvələrimizin misilsiz rəşadətindən, hərbçilərimizin əzmkarlığından, xalqımızın mübarizliyindən, danışıqraq əldə olunan uğurları Prezident-Xalq birliyinin şərtləndirdiyini xüsusi vurğulayıb.

Sonra ərazi partiya təşkilatlarının ötən dövr ərzindəki fəaliyyəti barədə hesabat məruzəsi dinlənilib. Ərazi partiya təşkilatlarının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş hesab olunub. Yığıncaqlarda təşkilati məsələlərə də baxılıb, ərazi partiya təşkilatlarına sədr və sədr müavinləri seçilib.

YAP Masallı rayon təşkilatının sədri yeni seçilən sədrləri və sədr müavinlərini təbrik edərək işlərində uğurlar arzulayıb, partiya üzvlərini partiyanın fəaliyyətində daha da yaxından iştirak etməyə dəvət edib.

***Rəfiqə***

ANALİTİK+AKTUAL

# Afina Ankaranın əsəbləri ilə oynayır: situasiya dəyişə bilər!

## Yunan general-leytenantı Türkiyənin ərazi bütövlüyünə qarşı dil uzatdı, iddia etdi

**Dünya ictimaiyyəti Rusiya-Ukrayna böhranı ətrafında analiz və təhlillərini apardıqları, müharibənin olub-olmayacağı ilə bağlı çoxsaylı və fərqli münasibətlər nümayiş etdirdikləri bir vaxtda, Yunanıstanda cərəyan edən hadisələr növbəti siyasi gündəmə doğru inkişaf etməyə başlayıb. Belə ki, son vaxtlar Afinanın rəsmi Ankaraya münasibətdə paranoyaları diqqət çəkməyə başlayıb.**

SİA xəbər verir ki, yunan KİV-lərinin məlumatına görə, Türkiyənin Lozanna və Paris razılaşmalarını dəyişmək planı var. Mətbuat onu da yazır ki, Türkiyə Şərqi Egey dənizindəki yunan adalarının suverenliklərini də mübahisə vasitəsinə çevirmək niyyətindədir.

### "Ekathimerini" qəzeti qeyd edir ki, Türkiyənin müdafiə sənayesinin yerli PUA-ları inkişaf etdirməsi və onları Egey dənizində istifadə etməsi Yunanıstanı qayğılandırmaqdadır

Bütün bunlardan əlavə, "Ekathimerini" qəzeti qeyd edir ki, Türkiyənin müdafiə sənayesinin yerli PUA-ları inkişaf etdirməsi və onları Egey dənizində istifadə etməsi Yunanıstanı qayğılandırmaqdadır. Belə ki, yunan tərəfi Türkiyə PUA-larına qarşı müqavimət vasitələrini axtarmaqdadır. Yunanıstan Silahlı Qüvvələrinin general-leytenantı Nikolaos Tamouridis isə 11 fevral 2022-ci ildə yazdığı məqaləsində Türkiyənin ünvanına təhdidlərlə dolu fikirlərini qeyd edib.Yunan ali rütbəlisi hətta xəbərdarlıq etməyi də unutmayıb və yazıb ki, onlar Türkiyədən qorxmurlar və Ankara Egey və Aralıq dənizlərində irəli sürdüyü tələblərindən əl çəkməlidir və s.

### Yunanıstan hərbi xərclərinə görə, hətta ABŞ-ı da üstələyib

Lakin bu da son deyil. Tamouridis bir az da irəliyə gedərək iddia edib ki, İstanbuldakı tarixi Müqəddəs Sofiya məbədində zənglər vurulacaq. O, tarixi məkanın məscid kimi fəaliyyətinə qarşı olduğunu açıq-aşkar və dözümsüzlük münasibəti ilə nümayiş etdirib. Bu davranış isə açıq-aşkar Türkiyənin ərazi bütövlüyünə qarşı dil uzatmaq, iddia etmək anlamını daşıyır. Ancaq fakt budur ki, yunan general-leytenantının bənzər tərzi əslində onun fikirlərinin təhdid deyil, qorxaqlıq olduğunu sübuta yetirir.

Başqa yandan, Yunanıstanın Türkiyə qarşılığındakı qorxusu bu ölkənin müdafiə xərclərini artırlamağa məcbur edir. Əbəs deyil ki, artıq Yunanıstan hərbi xərclərinə görə hətta ABŞ-ı da üstələyib və digər NATO ölkələrindən fərqli olaraq həmin sahədə önə çıxıb.



### ABŞ, Fransa və s. kimi ölkələri Afinaya müəyyən yardımlarını göstərsələr də, Türkiyə faktoru keçilməz səddə çevrilib

Amma bütün bunlara rəğmən, Yunanıstan hərbi xərclərini atrırsa belə, yenə də hərbi güc və imkanlar baxımından Türkiyənin potensialından kifayət qədər geri qalır. Bu gün NATO-nun yunanların maraqlarından çıxış edən ABŞ, Fransa və s. kimi ölkələri Afinaya müəyyən yardımlarını göstərsələr də, Türkiyə faktoru keçilməz səddə çevrilib.

### Ankaranın səbri tükınməz deyil, bu, Afinanın zərərinə işləyə bilər

Vəziyyətin gərginləşəcəyi halda isə Afina Ankaranın sərt davranışları qarşısında aciz qalacaq. Çünki Türkiyə NATO ölkəsidir və bu alyansın aparıcı lokomotivlərindən hesab olunur. İki ölkə arasında hərbi münaqişə baş verəcəyi halda (hansı ki, bu mümkünsüz görünür-R.R.) digər alyans üzvlərinin bu münaqişəyə qatılmaları ehtimalı demək olar ki, yoxdur. Təbii ki, Afina bunu da çox gözəl anlayır və bun hədə dili ilə çıxış etməsi isə, sadəcə, görüntü xarakteri daşıyır. Nəzərə alsaq ki, Ankaranın da səbri tükənməz deyil, belə olan vəziyyətdə, yəni yunan tərəfinin sözügedən davranışlarının səngiməmdiyi halda situasiya Afinanın zərərinə işləyə bilər.

*Rövşən RƏSULOV*

# Ermənistan
## faşist svastikası altında uçuruma gedir

Vaxtilə deyiblər ki, buynuz daşımaq öküzün qismətinə düşüb. Nanəcib ermənilərin isə qismətinə sağalması mümkün olmayan xəstəlik yazılıb. Bunlar dünyaya varid olandan ta bu günə qədər gözləri özgələrin torpağında qalıb və bu torpaq xəstəliyindən qurtula bilmirlər. Vaxtilə yurdsuz, evsiz-eşiksiz olan, babalarımızın at tövlələrində yatan ermənilər yüz hiylə işlədərək onlardan torpaq payı alıb onu genişləndirərək kiçik bir dövlət də qurdular, amma ac gözləri yenə doymadı. 2020-ci ilin sentyabrınadək bu iştaha ilə yaşadılar. Ancaq həmin ilin sentyabrında "yeni ərazilər uğrunda" başladıqları müharibə dişlərini sındırsa da onlara dərs olmadı. Orduları darmadağın edildi, özləri isə yaman günə qaldılar. Bununla belə sülhə gəlmək fikrində ardıcıl deyillər, yəni "gah nala, gah da mıxa" vururlar.

Azərbaycan isə əksinə, İrəvan üçün barışıq qapısını hələ ki açıq saxlayır. Təəssüf ki, bir sıra erməni siyasi çevrələrində, deyəsən, bunu yanlış anlamağa, hətta rəsmi Bakının zəifliyi və özlərinin təzədən hərbi istiqamətdə toparlanmaq fürsəti kimi yozmağa başlayıblar. Təhlükəli gözləntidir. Ona görə ki, Azərbaycan lideri həmişə xəbərdarlıq edib və edir ki, əgər Ermənistanda ölkəmizə, xalqımıza qarşı təzədən təhlükə baş qaldırsa, revanşistlər fəallaşsa, dərhal və yerindəcə məhv ediləcəklər. Buna kimsənin şübhəsi olmasın. Təəssüf ki, rəsmi İrəvanın sülh ritorikası ikibaşlı olaraq qalır. Paşinyan hökuməti bir yandan sülhün və qonşularla barışığın vacibliyindən danışırsa, digər yandan bölgədə sülhü və uzunmüddətli barışığı mümkünsüz edən mövqe nümayiş etdirir, Azərbaycanla sülh müqaviləsini aparıb "artsax məsələsi"nin "həlli"nə bağlayır, mifik "Dağlıq Qarabağ xalqı" üçün "öz müqəddəratını təyinetmə" prinsipini tanımağı şərt kimi irəli sürür.

Eləcə də Türkiyə ilə münasibətlərin normallaşması üçün rəsmi İrəvan ənənəvi anormal yanaşmasını davam etdirir. Ermənistan rəsmiləri az qala hər gün bəyan edirlər ki, sərhədlər heç bir şərt irəli sürülmədən açılmalıdır. Yəni, belə çıxır ki, ikitərəfli münasibətlər düzələndən, diplomatik əlaqələr qurulandan sonra da Ermənistan Türkiyəyə qarşı ərazi və "soyqırımı" iddialarını davam etdirəcək. Xatırladaq ki, həmin iddialar məğlub ölkənin hazırkı konstitusiyasında və hətta gerbində də əksini tapıb.

Ancaq yaddan çıxarırlar ki, əgər Ermənistan qonşu Türkiyənin də ərazisinə haqsız yerə göz dikibsə, üstəlik, qonşunu "soyqırımında" günahlandırıb böyük məbləğdə təzminat tələb edirsə bu ölkələr arasında necə normal münasibətlər qurula bilər? Deмək, Ankara-İrəvan ikitərəfli danışıqlarının hansısa mərhələsində mütləq bu məsələ ortalığa gələcək. Aydın görünür ki, sülhü əngəlləyən əsas problem də Bakı və Ankara ilə yox, məhz İrəvanla bağlıdır, onun barışıq haqqında yanlış təsəvvürü və illüziyası ilə əlaqədardır. Ermənistanın arzuladığı "sülhü" isə heç kim ona verməyəcək, o vaxta qədər ki, beynəlxalq hüquqa hörmət etməyi, qonşularla dinc yanaşı yaşamağı öyrənəcək, imkanları ilə xam xəyalları arasında böyük uçurumun olduğunu anlayacaq. Vəziyyət onda düzələcək ki, bir ovuc erməni toplumuna bəlalar gətirən, böyük güclərin əlində Türkiyəyə qarşı alət rolu oynayan saxta "erməni soyqırımı" iddiasından birdəfəlik imtina edəcək. Bu, əlbəttə, yüz ildən artıq bəş iddialarla yaşayan bədxah qonşularımız üçün çətin olacaq. Ancaq erməni sürüsünün, Ermənistanın başqa yolu varmı? Xeyr. Təəssüf ki, bunu anlayanlar hələ ki azlıqdadır. Erməni əsilli tanınmış ukraynalı tarixçi alim Filip Ekozyants kimi. O, bildirir ki, "Ötən əsrin 40-cı illərində"soyqırımı"nın qurbanı olduğumuz barədə bizə məlumat verilən andan biz normal insan həyatı yaşamağı tərgitmişik. Çünki o andan biz həyatımızı "soyqırımı"nın tanınmasına həsr etdik. Biz sanki bu sözə yapışıb qalmışıq və bu söz bizi özü ilə hər yerə sürükləyir. Tarix qan, qada, göz yaşı ilə doludur. Amma əgər başqa xalqlar öz kədərli keçmişlərindən çoxdan çıxıblarsa, biz, əksinə, onun daha dərinliyinə yuvarlanırıq".



Filip Ekozyantsın sözlərinə görə, erməni tarixçilərinin guya soyqırımının baş verdiyini dünyaya sübut etmək üçün gətirdikləri faktlar inandırıcı fakt deyil: "Bəli, insanlar öldü. Ermənilər türklərin, türklər ermənilərin, türklər və ermənilər kürdlərin əlində öldü və s. Amma qarşımıza məqsəd qoysaq ki, bu fəlakətin səbəbini tapaq, o zaman biz Osmanlı dövlətinin dağıdılmasında iştirak etmiş, Birinci Dünya müharibəsi zamanı Osmanlı İmperiyasının düşmənlərinə - Avropa dövlətlərinə işləyən ermənilərin üstünə gəlib çıxacağıq. Və bu bir neçə erməni siyasətçi nəslinin qazanc əldə etməyə çalışdığı qaranlıq bir tarixçədir", - deyə o, qeyd edib.

Təəssüf ki, həqiqəti görən və etiraf edən bu cür ermənilər azdır. İndi havalanmış başlarının üzərinə faşist svastikası qaldırmış və beyinləri zəhərlənmiş ermənilər daha çoxdur. Başa düşmürlər ki, yetmiş yeddi il əvvəl onu başları üstündə gəzdirənlər ölkələri ilə bərabər yerlə-yeksan oldular. Belə dəhşətli bir aqibət Ermənistanı da gözləyir.

*Vəli İlyasov*

# Bağışlayın bizi!

## Haqq, ədalət harayı.....!



Mən müəlliməm! Ömrümün müdrik çağında həyat yoluma nəzər salmaq keçdi könlümdən. Dərk etməyə başlayandan bu günə kimi yaşadıqlarımı bir an xatırlamaq xoş olsa belə həyəcanlandırdı, sevincli olduğu qədər kövrəltdi məni. Qazandıqlarım da var idi, xəyal kimi ötən fürsətlər, itkilər də az deyildi. Heyfsləndim itkilərim üçün, özümü qınadım dəyərlərə vaxtında vaxt ayıra bilmədiyim - dəyər vermədiyim üçün. Özümü danladım, hərdən uman yerdən küsdüyüm dost-tanışlardan, hətta sənətə-çörəyə çatdırdığım insanlardan incidiyim üçün;

- Sən, səni əllərindən tutub ilk sözləri yazmağı öyrədən, səni sən edən ilk müəllimini nədən indi, müdrikləşən dövrdə yada salıb, dəyərləndirirsən? Göylərdəmi uçurdun? Xəyallar aləmində idinmi? Düzdür hər zaman ehtiramla, hörmətlə yanaşdın müəllimlərinə. Unutma ki, müəlliminin sənə bəxş etdiyi əbədi təmənnasız sənət vəsiqənin yanında bu yanaşma, ancaq bir təsəllidir sənin özün üçün. Varlığın qədər sevdiyin sənəti, musiqini axı o sevdirib sənə. Bu gün ayrıla bilmədiyin o ilahi, sehirli səsləri yazmağı, oxumağı ilk dəfə o həkk edib sənin təmiz, pak hələ yazılmamış həyat səhifələrinə. Nədəndir belə unutqanlıq -peşimanlıq? Bəlkə bu ömür-sənət yoluna yazılmış sınaqlardan - "zarafatlardan" biridir? Nə bilim?

Elə isə sənin də kimlərdənsə-sənət, çörək verdiklərindən inciməyə haqqın varmı? Görünür, bu da taleyin zarafatlarından biridir. Həyatın sınaqlarını, oyunlarını dərk edib etiraf etmək üçündür - ucalmaq üçün! Bəlkə də bu gün bu yazının yazılması üçündür belə bir vaxtı ötmüş, amma dəyərini itirməmiş halal, haqq ədalət harayı!

Həyatı dərk edən zaman,
Anlayır səhvlərini insan.
Gör nə qədər baha başa gəlir,
Dərk etmək sənə, insan
İlk müəllim

Tarı ilk dəfə 13 yaşımda əlimə almaq qismət oldu mənə. Bəlkə də bu səbəbdən 13 rəqəmi həyatım boyu mənə düşərli oldu. Bəxtim gətirmişdi. Bir çox görkəmli, tanınmış musiqiçilərin ilk müəllimi olmuş tarzən, pedaqoq Səfər Rəcəbli mənim də ilk müəllimim oldu. Körpə yaşlarından işıq üzünə həsrət qalan bu insan bir çox musiqiçilərin sənət yoluna nur saçmış, böyük qəlbində olan sevgini öz şagirdləri ilə paylaşmış və musiqini onlara elə sevdirmişdir ki, bu ilahi sevgi ömür boyu onlarla birgə yaşamış, uğurlara sevinmiş, üzüntülərin təsirini musiqi tərənələri vasitəsilə yüngülləşdirərək, hər kəsi həyata, yaşamağa, yaratmağa səsləmişdir. Sənətə olan bu sevgini mən ilk məhəbbət adlandırardım. İnciməsin məndən sevib-sevilənlər. Onların yazısına ilk məhəbbət yox, son məhəbbət yazılıb.

Bağışla məni ilk məhəbbətim,
Nə biləydim ki, son məhəbbət var.
Məhəbbətin özünün-özündən
Bax, beləcə qisas almağı var.

İki gəncin ilk məhəbbətindən fərqli olaraq bu məhəbbət uzunömürlü olmuş, musiqi xəzinəmizi bəzəyərək, sənət incilərinin yaranmasına səbəb olmuşdur. Bir il ərzində bir çox xalq mahnılarını, rəqsləri, rəngləri öyrəndim. Tarda ifa etdiyim xalq musiqimizin möhtəşəm melodiyaları rəng qatdı mənim yeniyetmə çağlarıma.

Segah çalma,
Öldürər məni,
Şüştər, Humayun
Yandırar məni
Bayatı-Şiraz
Qandırar məni.
Rast çal, Şur çal
Bir də Cahargah,
Bəlkə onlar
Arzularıma
Çatdırar məni

Ayrıla bilmədiyim bu sənəti davam etdirmək arzusu ilə musiqi məktəbinə daxil oldum. İndiyədək şifahi öyrənib çaldıqlarımın yazılı əlifbasını öyrənməyə başladım. Burada da bəxtim gətirmişdi. Musiqi əlifbasını, notları çox asan yolla, böyük səbrlə öyrədən müəllimim bir il ərizində mənə iki sinfin proqramını keçəcək, ilin sonunda görkəmli polyak bəstəkarı M.Oginskinin "Polonez" əsərini fortepianonun müşayiətilə çalmağıma nail oldu. Bu, məndən çox, müəllimimi sevindirdi, onun qələbəsi idi. Mənə musiqi əlifbasını öyrədən həmin müəllim bu gün böyük hörmət və etiramla yad etdiyim, ömrünün 81-ci ilini yaşayan tarzən-pedaqoq Sahib Axundovdur. Bəli, ilk baxışda sadə görünən 7 əsas və 5 köməkçi səslərdən ibarət musiqi əlifbasını: Do, re, mi, fa, sol, lya, si notlarını öyrətdi mənə. Unutmayaq ki, hər kəsin əzbər bildiyi bu sadə notlarla musiqisevərləri məftun edən möhtəşəm sənət nümunələri-operalar, baletlər, simfoniyalar, gündəlik mənəvi tələbatımızı ödəyən musiqi inciləri, mahnılar, rəqslər yaranmış, həyatımızın ayrılmaz mənəvi qidasına çevrilmişdir. Bəli, hər birimizin əzbər bildiyimiz bu sadə notlar hesabına, bu notları bizə öyrədən ilk müəllimlərin hesabına, mənə musiqi əlifbasını öyrədən ilk müəllimim Sahib Axundov kimi sənətini sevən cəfakeş insanların hesabına sehirli musiqi aləmi öz sirlərini, qəlbini açdı bizə.

Yenə özümü qınadım. İlk sənət müəllimlərindən birinin sadə, təvazökar insan, yüksək mənəviyyat sahibi Sahib Axundovun təmənnasız xidmətlərini belə gec qələmə aldığım üçün...

Ayaq üstə deməliyəm son şeiri,
Dastanımın nöqtəsidir çünki o,
Əsla! Yazılmayan arzular var,
Yarat! Dastanımın davamıdır o!
Bağışlayın bizi

Əziz müəllimim! Həyatınızın ən gözəl illəri olan gəncliyi, ömrünüzü musiqiyə, musiqi irsinin qorunmasına, inkişafına həsr etdiniz. Sizə əta edilən fitri istedad, sevgi, səbr sayəsində heç bir mükafat, təmənna gözləmədən böyük şövqlə, həvəslə yaşayıb-yaratdınız. Kim üçün? Əlbəttə, bizim üçün! Musiqi dünyasını olduğu kimi, zənginləşdirərək gələcək nəslə catdırmağımız üçün. Bu möhtəşəm işi bir qəlbə sığmayan məhəbbətlə etdiniz. Həmin sevgi qəlblərə paylandı. Paylandıqca daha da şaxələndi. Sizin sənət sevginiz bu gün ürəklərdə çırpınır, musiqisevərləri yaşamağa yaratmağa sövq edir. Siz şagirdlərinizin varlığında musiqi kimi, sehirli, görünməyən səslərlə yaşayırsınız.

Unudulmaz müəllimim! Bizə ilahi, əfsanəvi, əsrarəngiz səslərlə yazılmış musiqi elmini elə sevdirdiniz ki, dəlicəsinə bu sənətin dərinliklərinə baş vurduq. İllər ötdü bu dərinliklərdən üzə çıxdıq. Görünür, sənətin möcüzələrini bizə əta edən müəllimlərimizi dəyərləndirmək ömrümüzün bu dövrünə - müdrik cağına yazılmışdı. Qəlbimdən keçənləri yazdığım zaman bir hayqırtı, haray, gecikmiş səda keçdi narahat könlümdən:

- Bağışlayın bizi! Sizi gec dəyərləndirdiyimiz üçün, haqqınızı vaxtında, uca adınıza layiq ödəyə bilmədiyimiz üçün.

- Bağışlayın bizi-yetirdiyiniz incəsənət xadimlərini, ənənələrinizi azad ölkəmizin bir çox musiqi məktəblərində, konsert salonlarında yaşadan tələbələrinizi. Bağışlayın bizi..

Düzdür, ilk müəllimlərimin yaradıcılıqlarını, onların musiqi mədəniyyətimizə bəxş etdikləri töhfələri yazdığım "Naxçıvan musiqi mədəniyyəti tarixindən - XX əsr" kitabımda işıqlandırmaq, hətta bir necə müəllimim haqqında monoqrafiyalar yazmaq nəsib oldu mənə. Ancaq yenə qəlbimdə natamam bir hiss, bir səs yaşayaraq hərdən incidir məni, sakitcə haray salır.

- Bağışlayın bizi....
Bağışlamağı bizə siz öyrətdiniz,
Bağışlayın bizi
Bu sevdaya "bəlaya"
siz bizi saldınız.
"Bəla" da belə gözəl, şirin olarmış,
Bağışlayın,
Bağışlayın bizi

***Nazim Paşa Quliyev***
***Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, bəstəkar***




# "Xocalı soyqırımı xalqımızın yaddaşından heç zaman silinməyəcək"

"30 il öncə ermənilərin törətdiyi Xocalı soyqırımı xalqımızın yaddaşından var olduğumuz qədər silinməyəcəkdir. İllər ötsə də, xain qonşularımızla gələcəkdə sülh mövcud olsa da, bu faciə unudulan deyil. Müharibənin özü faciədir. Hərb tarixlərinə nəzər salsaq, müharibələr dövründə milyonlarla insanlar həlak olub". Bunu "Səs" qəzetinə açıqlamasında Qaçqınların və Məcburi köçkünlərin işi üzrə Dövlət Komitəsi yanında ictimai Şuranın sədri Anar Xəlilov deyib.

Onun sözlərinə görə, həlak olan döyüşçülərin sayı bir statistika olaraq tarixə çevrilir: "Müharibələr dövründə öldürülən dinc insanların sayı və bununla bağlı baş verən hadisələr xüsusi olaraq tarixin qan yaddaşına yazılır və unudulmur. Milyonlarla insanların həlak olmasına səbəb olmuş İkinci Dünya müharibəsinin qurbanları arasında dinc yəhudi və belarusların, çinlilərin və s. qəddarlıqla öldürülməsi xüsusi yad olunur. Xocalı faciəsi də məhz bu qəbildən olan insanlığa qarşı törədilmiş bəşəri bir cinayətdir. Hesab edirəm ki, düşmən son 44 günlük Vətən müharibəsində bu faciənin bədəlini ödəsə də, hələ cinayətkarlar tam cəzasını almayıblar. Faciədən ötən 30 il ərzində Azərbaycan xalqı bu qanlı hadisəni yad etməklə yanaşı, onun Beynəlxalq müstəvidə tanınması və hüquqi qiymətin verilməsi istiqamətində çox böyük işlər gördü. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə yenidən qayıtmasından dərhal sonra bu istiqamətdə köklü işlər aparılmağa başlandı. İnformasiya blokadasında olan Azərbaycanın məhdud imkanlarına baxmayaraq bütün imkanlardan istifadə olunmağa başlandı. Ümummilli Liderin tövsiyəsi ilə Vətəndaş cəmiyyəti və yenicə formalaşmağa başlayan diaspora bu faciənin dünyaya çatdırılmasında böyük səylər göstərməyə başladılar".

A.Xəlilov onu da bildirdi ki, dünyadakı böyük siyasi nüfuzundan istifadə edən Ümummilli Lider bütün nüfuzlu Beynəlxalq görüşlərdə və tədbirlərdə bu facie ilə bağlı ətraflı məlumatlar verərək dünya ictimaiyyətinin diqqətini Xocalı faciəsinə yönəltməyə nail oldu: "Prezident İlham Əliyevin dövründə isə Ümummilli Lider tərəfindən görülən işlərin davamı olaraq Xocalı faciəsinə beynəlxalq hüquqi-siyasi qiymət verilməsi istiqamətində böyük addımlar atıldı. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Xanım Əliyevanın Beynəlxalq müstəvidə Xocalı faciəsinin tanıdılması istiqamətində apardığı fəaliyyəti xüsusilə qeyd etmək lazımdır. Fondun hazırladığı maarifləndirici təbliğat vasitələri, təşkil etdiyi beynəlxalq tədbirlər Xocalı faciəsi haqqında dünya ictimaiyyətinə həqiqətlərin çatdırılmasında çox önəmli rol oynadı. Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın başlatdığı "Xocalıya Ədalət" Beynəlxalq kampaniyası demək olar ki, dünyanın əksər ölkələrində geniş fəaliyyət planı ilə faciənin tanıdılmasında əhəmiyyətli nailiyyətlər əldə etdi. Məhz bu fəaliyyətlər nəticəsində dünyanın aparıcı beynəlxalq təşkilatları və onlarla dövlətləri Xocalı faciəsinin tanınması haqqında qərarlar qəbul etmişlər. Bu gün də Vətən müharibəsində qələbəmizdən sonra da Xocalı faciəsinin dünyada tanıdılması istiqamətində işlər uğurla aparılır. Yenidən formalaşan Diasporla İş üzrə Dövlət Komitəsinin bu gün apardığı fəaliyyəti də xüsusilə qeyd etmək lazımdır. Komitə diasporlarımızla birgə Xocalı faciəsinin dünyada tanıdılması istiqamətində bir çox uğurlu layihələrə imza atmışdır. Vətəndaş cəmiyyətimiz, KİV-də Xocalı faciəsinin Beynəlxalq aləmdə tanıdılması və hüquqi-siyasi qiymət verilməsi istiqamətində fəallıq nümayiş etdirirlər. Prezident İlham Əliyevin apardığı xarici siyasət kursunun prioritet istiqamətlərindən biri də Xocalı faciəsinin beynəlxalq müstəvidə hüquqi-siyasi qiymət verilməsidir".

***Gülyana***

# "Çinin texnoloji və iqtisadi sıçrayışını yalnız Çinin özü saxlaya bilər"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.*

**Qazaxıstanlı siyasi və iqtisadi ekspert, Mərkəzi Asiya üzrə mütəxəssis Vyaçeslav Şekunski "Caliber" analitik mərkəzinə müsahibəsində dünya iqtisadiyyatının vəziyyəti, Çinin qlobal iqtisadi məkanda yüksəlişi haqda maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımızın nəzəroinə çatdırırıq.**



***- Vyaçeslav Anatolyeviç, Çinin Mərkəzi Asiya regionuna təsir dərəcəsini necə qiymətləndirirsiniz? Bu, region ölkələri üçün hansısa risklər yaradırmı?***



- Əslində, Çinin regiona təsiri sırf faydalıdır. Respublikalar öz xammal və kənd təsərrüfatı məhsulları üçün sabit bazar əldə etdilər və gələcəkdə Çin regionda kənd təsərrüfatı məhsullarının keyfiyyətinin inkişafını stimullaşdırmaqda davam edəcək ki, bu da ixrac imkanlarını genişləndirəcək. Yeri gəlmişkən, Qazaxıstanın ərzaq məhsulları uzun illərdir ki, Çin mağazalarında satılır. Düzdür, ÇXR kifayət qədər uzun müddət respublikalarımızı yalnız ərzaq təminatçısı, xammal bazası kimi istifadə edirdi. Lakin ölkəsini enerji resursları və metallarla rahat logistika ilə təmin etmək prosesini relslərə qoyan Çin respublikalarda yüksək əlavə dəyərə malik məhsulların yerləşdirilməsini təmin etmək üçün daha bir addım atır.







Çin sədri Si Cinpinin 25 yanvar 2022-ci ildə Çin və Mərkəzi Asiya dövlət başçılarının onlayn sammitindəki çıxışına nəzər salsanız, o zaman həm 30 il ərzində əldə olunan nəticələr, həm də Pekinin niyyətləri yüngül vurğularla ifadə olunur. Amma ÇXR bizim respublikalara Qərb ölkələri kimi yanaşmır, texnologiyaya çıxışı məhdudlaşdırmır. Dövlət başçısı Si çıxışında bildirib ki, Çin və Mərkəzi Asiya ölkələri yüksək texnologiyalar, o cümlədən süni intellekt, böyük data bazası və bulud hesablamaları sahəsində əməkdaşlığı dərinləşdirməlidir.

Belə ki, Özbəkistanda bir neçə ildir ki, ÇXR-in uzun illərdir uran xammalının istehsalında əməkdaşlıq etdiyi elektronika yığma zavodu fəaliyyət göstərir. Çinlilər ölkədə yollar, böyük istilik elektrik stansiyası, ağır özüboşaldan maşınlar və vaksinlər istehsal edən zavodlar və s. yaradıblar. Maraqlı faktdır. Özbəkistan zavodları karbohidrogen xammalı emal edir, bu xammal Çin şirkətləri tərəfindən Türkmənistan və Qazaxıstanda yerləşən yataqlardan alınıb təmin edilir. Ümumiyyətlə, Çinin Özbəkistan və Tacikistanla ticarət dövriyyəsi 100 dəfə artıb.

Həmçinin Qırğızıstanda məişət texnikası, avtomobillərin yığılması, kabel məmulatlarının və vaksinlərin istehsalı üçün fabriklərin tikilməsi planlaşdırılır.

Qazaxıstan Çin sayəsində geniş ərazisindən daha çox fayda əldə etmək imkanı əldə etdi. Əməkdaşlıq illəri ərzində Yeni İpək Yolu böyük stimul qazanıb, respublika ərazisindən keçən ticarət dövriyyəsi 6 dəfə artıb. 160 ölkə arasında logistikanın inkişaf səviyyəsinə görə reytinqdə (2018-ci il) Qazaxıstan region üzrə ən yüksək göstəriciyə-71-ci yerə malikdir. Regionun qalan ölkələri isə daha aşağı yer tutur. Bununla belə, irəliləyiş göz qabağındadır: 2007-ci ilin reytinqi ilə müqayisədə Qazaxıstan 62 pillə, Özbəkistan 30 pillə yüksəlib, ərazisinin 93%-i dağlar olan Tacikistan isə 12-ci yerə yüksəlib.

Əgər biz Qazaxıstana qayıtsaq, o zaman yerli elita ilə Çinin ölkədə olması mövzusu arasında müəyyən münaqişə var. Ona görə də istər müəssisələrdə, istərsə də şəhər meydanlarında millətlərarası münaqişələr başlanır. Çin şirkətlərinin iştirakı ilə elan edilən 50-dən çox yeni müəssisənin tikintisinin qismən kağız üzərində qalacağı hissi var. Çinlilər isə indi qazax tərəfdaşlarına təşvişlə baxırlar.

Eyni zamanda qeyd etmək lazımdır ki, ÇXR və Tacikistan arasında münasibətlər güclü ilə zəif arasında münasibətlərə bənzəyir. Çin iri infrastruktur obyektlərinə (məsələn, Düşənbə İES-2) sərmayə qoymaqla respublikanın əsas kreditoruna çevrilib və onun bütün üstünlükləri var, dünyanın ən böyük gümüş yataqlarından birinin işlənməsi, qızıl yataqlarının yerləşdirilməsi, hərbi baza və s.

Türkmənistanın əsas ixrac tərəfdaşı Çindir. Təbii ki, bir nüans var. Respublikada hasil edilən neftin yarısı Çinə gedir, lakin onun böyük hissəsi hələ də Çin krediti əvəzinə ödənilir. Amma ümumilikdə Türkmənistan əməkdaşlıqdan o qədər də xeyir görmür.

Əgər risklərdən danışırıqsa, o zaman, fikrimcə, müəyyən mərhələdə respublika ərazisində hasilatı artırarkən özümüzün enerji resurslarının çatışmazlığı riski yarana bilər. Məsələn, əgər respublikada kimya sənayesi, xüsusən də polipropilen və digər polimerlərin istehsalı üçün zavod quraşdırılıbsa, o zaman karbohidrogen yataqlarına çıxış imkanları nəzərə alınmalıdır. Və sonra belə çıxa bilər ki, qaza ən rahat çıxışı çinlilər "gözdən keçiriblər" və onlar qazı sərhəddən keçiriblər.

***- İqtisadi maraqları ABŞ və Qərblə ciddi rəqabət aparacaq Çinin yeni dövrünün gəldiyini söyləmək olarmı? Bu gün özünü necə göstərir?***

- Hazırda belə görünür. Praktikada Çini texnoloji və iqtisadi sıçrayışda yalnız Çinin özü saxlaya bilər. Əgər ölkə daxilində heç nə baş verməsə, o zaman maraqlı vəziyyət yaranacaq ki, özlüyündə kifayət qədər qapalı olan ölkə aparıcı rol alıb. Ən uzun oyun tarixinə malik böyük ölkə haqqında bayağılıqdan uzaqlaşsaq, indi Çinə qeyri-adi ölçüdə papaq geyindirmək lazımdır. Çinli investorlar ab-havanı idarə edə biləcəyi iqtisadi dayaqda ilk addımlar atır. Görək çinlilər Olimpiadanı boykot edən ölkələrdən necə qisas alacaqlar...

Ümumiyyətlə, belə bir dövr gələ bilər. Amma yaxşı çünşünaslardan soruşmalıyıq ki, çinlilərin mentaliteti bu yükün öhdəsindən gələcəkmi?

***- Çin faktorunu, o cümlədən Rusiyanın maraqlarını regiondan sıxışdırmaq baxımından birbaşa təhlükə kimi nəzərdən keçirməyə dəyərmi?***

- Aydın məsələdir ki, hər iki ölkə bir-birinə gələcəkdə məhz region ərazilərində status-kvo baxımından uyğun gəlir. Bu bir növ simbiozdur. Çin üçün artıq müəyyən edilmiş xammal tədarükçüsü statusunda olan respublikalar və alternativ nəqliyyat dəhlizi vacibdir. Çin isə təbii ki, Rusiyanın respublikaları qorunmalı olan öz buferi hesab etməsindən məmnun olacaq.

Amma qeyri-sabitlik dövrünə qədəm qoymuş respublikaların ərazisində həmin Çinin maraqlarının qorunması baxımından ŞƏT-in potensialına baxmaq maraqlı olardı. Hazırda ölkələri birləşdirən regional təşkilatlar sıfırdan fəal şəkildə yaradılır və ya yenidən canlanır. Buna baxmayaraq, Əfqanıstanın stimullaşdırdığı regionda qeyri-sabitliklə bağlı çağırışlar, respublikalardakı daxili problemlər öz töhfəsini verir- bütün bunlar ŞƏT-in yenidən qurulması üçün amil rolunu oynamalıdır.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ

Səs

18 fevral
2022-ci il

# Messi: "Ən güclü komanda həmişə qalib gəlmir"




**Fransanın PSJ klubunun argentinalı hücumçusu Lionel Messi komandasının Çempionlar Liqasının qalibi olmaq şanslarından danışıb. Qol.az "PSG Magazine" nəşrinə istinadən xəbər verir ki, o, turnirin kubokunu qazana biləcəklərini deyib: "Çempionlar Liqası? Turnirdə qalib gəlməyə çalışacaq komandamız var. Biz bu ideyaya görə çox həyəcanlıyıq və ümid edirik ki, bu reallaşacaq. Lakin PSJ sakitləşməlidir.**

Ən güclü komanda həmişə qalib gəlmir. Ən yaxşı komanda olmağın yollarını düşünərək bütün detallara diqqət yetirməlisiniz. Məqsədlərinə çatan ən güclü komandalardır. PSJ bu haqda düşünür".

Çempionlar Liqasının 1/8 final mərhələsinin ilk oyununda PSJ "Real"a 1:0 hesabı ilə qalib gəlib. Oyunda yeganə qolu Kilian Mbappe vurub.

# Yurgen Kloppdan 50-ci qələbə



UEFA Çempionlar Liqasının 1/8 final mərhələsində "İnter"lə ilk matç "Liverpul"un baş məşqçisi Yurgen Klopp üçün əlamətdar olub. Belə ki, 54 yaşlı mütəxəssisin komandası görüşdə 2:0 hesabı ilə qalib gəlib. Beləliklə, Klopp ÇL-də 50-ci qələbəsini qazanıb. Bununla da o, turnirdə ən çox qalib gələn çalışdırıcılar arasında 8-ci yerə yüksəlib.

Bu göstəricidə rekord "Mançester Yunayted"in keçmiş baş məşqçisi Aleks Fergüssona məxsusdur (102 qələbə). Karlo Ançelotti 2-ci (94), Pep Qvardiola 3-cü (91), Arsen Venger 4-cü (86), Joze Mourinyo 5-ci (81), Lui van Qaal 6-cı (57), Rafael Benites isə 7-cidir (53). Həmçinin Klopp ÇL-də 50 qələbə səddinə çatan ilk almaniyalı mütəxəssis olub.

Qeyd edək ki, "Liverpul" və "İnter" arasındakı cavab matçı martın 8-i İngiltərədə keçiriləcək.

# COVID testlərinin nəticələri niyə gecikir?

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, genetik Zakir Bayramov nazirliyin sosial şəbəkələrdəki hesablarına COVID-19 testləri ilə bağlı gələn sualları cavablandırıb. SİA-nın məlumatına görə, Z.Bayramov bildirib ki, müraciət edən hər bir şəxsin nümunəsi




PZR üsulu ilə işləmək üçün bir neçə mərhələdən keçir. İlk öncə nümunədən DNT-nin ekstraksiyası (ayrılması), sonra isə amplifikasiya (aparatda oxunması) həyata keçirilir.

"Amplifikasiya mərhələsini həyata keçirmək üçün aparata 96 şəxsin nümunəsi yerləşdirilməlidir (məsələn, əgər test CFX96 BioRad cihazında aparılarsa). Əks halda az sayda nümunənin qoyulması zaman itkisindən kütləvi yoluxmalar zamanı məqsədəuyğun sayılmır. Belə ki, hər üç mərhələni nəzərə aldıqda (ekstraksiya, amplifikasiya və nümunələrin yığılaraq bir məntəqəyə göndərilməsi) PZR testin cavabları 96 nəfər üçün yalnız 3-4 saatdan sonra mümkün olur. Bunu nəzərə alaraq, 10-20 min testi həyata keçirmək üçün xeyli vaxt tələb olunur. Bu səbəbdən də son günlərdə testlərin cavablarının çıxmasında müəyyən gecikmələr müşahidə edilməkdədir", - deyə o bildirib.

# Soğan qanda şəkərin miqdarını 4 saat ərzində aşağı salır

**Ucuz və populyar tərəvəz olan soğan birinci və ikinci növ diabet xəstəliklərindən əziyyət çəkən pasiyentlərin qanında şəkərin miqdarını çox qısa müddətdə - cəmi 4 saat ərzində aşağı salmaq qabiliyyətinə malikdir.**

Nüfuzlu xarici ölkə KİV-lərində yayılan məlumatlarda deyilir ki, alimlər soğandan istifadə zamanı qanda şəkərin miqdarının 40 milliqram/desilitr aşağı düşdüyünü müəyyən ediblər. Elmi işin müəlliflərindən biri olan Entoni Oçeh deyib: "Soğan ucuz və əlçatan olan ərzaqdır ki, yeməklərə ədviyyat qismində qatılır. Ondan diabet xəstələrinin müalicəsində də istifadə etmək mümkündür".



Mütəxəssislər hesab edirlər ki, soğanın bu xassəsi onun tərkibində kversetin və sulfidlərin mövcudluğu ilə izah olunur. Kversetin antioksidant və iltihab əleyhinə təsirə malik olan yaxşı öyrənilmiş flavonoidlər qrupuna daxildir.

# Sümükləri əridib dağıdan içki və qidalar

**Sümük-dayaq aparatı insan yaşlandıqca deformasiyaya uğrayır və boşalır. Sümüklərin sıxlığına vitamin D, kalsiy və maqniy cavabdehdir. Lakin gündəlik yediyimiz qidalar, içkilər var ki, onlar sümüklərdən kalsiumu yuyub, onları kövrəkləşdirir. Bu vəziyyət gənclərdə də ola bilər. Medicina.az xəbər verir ki, rusiyalı travmatoloq-ortoped Yuriy Kostenko sümükləri əridən vərdiş və qidaları açıqlayıb.**



"Ayaqüstü yemək, normal qidalanmamaq, fast-food, az gəzmək sümüklər üçün vacib olan vitamin mineralların defisitinə səbəb olur. Xüsusən gənclərin üz tutduğu qazlı, şirin içkilər, energetik içkilər, tərkibində ortofosfor turşusu olan istənilən içkilər sümüklərdən kalsiumu yuyur. Trans yağlar, şirniyyat, qızardılmış fast-food bağırsaqlarda patogen mikroflora yaradır ki, nəticədə sümüklərdən K2 vitamini çıxır.

Eləcə də qəhvə, tünd çay, kofein tərkibli bütün içkilər sidikqovucu təsir etdiyi üçün, sidiklə kalsiumu orqanizmdən çıxarır. Normada gündə 1-2 fincandan artıq qəhvə içmək olmaz".

Osteoporozun qarşısını almaq üçün kalsiy və vitamin D ehtiyatını normada tutmaq, açıq havada gəzmək, hərəkət etmək, faydalı qidalanmaq lazımdır.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4600